

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 27 (818) ▪ 13 iyul 2016 | www.vergiler.az | Qiyməti: 55 qəp.

# Prezident İlham Əliyev: «2016-cı il Azərbaycanda dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq»

***İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib***



Giriş nitqində dünyada təhlükələrin artdığını, iqtisadi böhranın daha da dərinləşdiyini və bütün ölkələrin bu böhrandan müxtəlif formada əziyyət çəkdiyini deyən Prezident İlham Əliyev Azərbaycanda uğurlu inkişafın təmin edildiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, ölkə qarşısında duran vəzifələrin həll olunduğunu bildirib. Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı aprel ayında təmas xəttində Ermənistanın törətdiyi təxribatın qarşısının ordumuz tərəfindən alındığını, əks-hücum əməliyyatı nəticəsində 2 min hektar ərazinin işğaldan azad edildiyini diqqətə çatdırıb: «2016-cı ildə Ermənistanın növbəti təxribatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində çox ciddi fəsadlara gətirib çıxarmışdır. Ermənistanın niyyəti bəllidir. Onlar danışıqları müxtəlif yollarla pozmaq istəyirlər və görəndə ki, beynəlxalq vasitəçilər tərəfindən onlara təzyiq artır, növbəti təxribatlara əl atırlar. Onlardan biri də aprelin əvvəlində baş vermiş silahlı təxribat idi. Bizim mövqelərimizə silahlı hücum təşkil edilmişdir. Ancaq Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi, əks-hücum əməliyyatı keçirərək işğal altındakı torpaqların bir hissəsini, daha dəqiq desəm, 2 min hektar torpağı azad etdi. Biz indi ondan bir neçə dəfə böyük əraziyə tam nəzarət edirik.

Bu münaqişə tezliklə öz həllini tapmalıdır. Əgər belə olmasa, heç kim təminat verə bilməz ki, bu təxribatlar təkrarlanmayacaq. Çünki Ermənistanın niyyəti münaqişəni dondurulmuş vəziyyətdə saxlamaqdır. Onlar fikirləşirdilər ki, bizə qarşı edilən təxribat onların qələbəsi ilə nəticələnəcək. Ancaq onlar acı məğlubiyyətə uğrayıblar. Azərbaycan dövləti böyük hərbi qələbə qazanmışdır. Aprel döyüşləri bir daha onu göstərir ki, status-kvo tezliklə dəyişdirilməlidir. Bunu artıq bu məsələ ilə məşğul olan vasitəçilər də dəfələrlə bəyan ediblər. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Əminəm ki, aprel döyüşlərinin nəticələri Ermənistan üçün dərs olacaq, onlar lazımi nəticələr çıxaracaqlar və danışıqlar prosesində konstruktiv mövqe ilə çıxış edəcəklər. Belə ümidlər var. Çünki bir daha demək istəyirəm ki, son bir-iki ay ərzində danışıqlar prosesində çox böyük fəallıq var.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu məsələnin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim üçün əsas vəzifədir. Bu münaqişənin həllinin başqa yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, status-kvo dəyişdirilməlidir, işğala son qoyulmalıdır. Nəinki BMT, bütün digər təşkilatlar da bizim mövqeyimizi dəstəkləyir. Dünən NATO-nun Zirvə görüşündə qəbul edilmiş yekun sənəddə də Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı çox ciddi məqamlar öz əksini tapıbdır. Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü tanınır və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır».

Bu ilin altı ayında ölkəmizin xarici siyasətinin fəal olduğunu, 10-dan çox dövlət və hökumət başçısının Azərbaycana səfərə gəldiyini, özünün də xaricə səfərlərinin beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyini deyən Prezident İlham Əliyev bu siyasətin bundan sonra da davamlı olacağını bildirib: «Mən ilin əvvəlindən bəri bir neçə beynəlxalq tədbirdə iştirak etmişəm. Davos Ümumdünya İqtisadi Forumu - bu, dünya miqyasında birinci beynəlxalq tədbirdir. Orada həm iqtisadi, həm siyasi məsələlər gündəlikdədir. Ondan sonra Münxen Təhlükəsizlik Konfransı - bu da dünya miqyasında Davos Forumu ilə eyni səviyyədə olan beynəlxalq tədbirdir. Orada da Azərbaycanın, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi səsləndi. Londonda Suriyaya yardım məqsədilə keçirilmiş konfransda mənim iştirakım Azərbaycanın mövqeyini və imkanlarını bir daha ortaya qoydu.

*Davamı 2-ci səhifədə*

## Azərbaycan-Rusiya münasibətləri strateji xarakter daşıyır

### İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib

Rusiya xarici işlər nazirini salamlayan dövlətimizin başçısı qonağı yenidən Bakıda gördüyünə şad olduğunu bildirib. «Biz Rusiya tərəfinin, şəxsən Prezidentin səylərini yüksək qiymətləndiririk. Mən həm Sizə, həm də Rusiya Prezidentinə Sankt-Peterburqda görüşün keçirilməsi təşəbbüsünə görə təşəkkürümü bildirmək istərdim. Biz bu görüşü çox səmərəli və müsbət görüş kimi qiymətləndiririk. Əlbəttə ki, son 3-4 ayda danışıqlar prosesində nəzərəçarpan müsbət dinamikanın davam edəcəyinə ümid bəsləyirik. Hesab edirəm ki, danışıqların bu dövrü ən dinamikdir və ümidvaram, həm də ən səmərəli olacaq. Sizin bu gün Bakıya, bundan əvvəl isə Yerevana səfəriniz bir daha sübut edir ki, Rusiya hər iki ölkənin dostu, qonşusu kimi münaqişənin nizamlanmasında maraqlıdır. Təbii ki, biz də maraqlıyıq, regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün münaqişənin tezliklə həllini istəyirik.

Həmçinin, əlbəttə ki, sizin səfəriniz ikitərəfli münasibətlərin gündəliyini müzakirə etmək üçün yaxşı imkandır. Keçən ay biz bu məsələləri Rusiya Prezidenti ilə müzakirə etmişdik. Elə bir mövzu tapmadıq ki, ani müdaxilə tələb etsin. Bizim əsas vəzifəmiz bütün istiqamətlər üzrə - həm siyasi, həm iqtisadi, nəqliyyat, energetika, humanitar əməkdaşlıq sahələrində münasibətləri möhkəmləndirməkdir. Biz dost və tərəfdaş kimi inamla irəliləyirik. Əminəm ki, sizin səfəriniz uğurlu olacaq və ölkələrimizin daha da yaxınlaşmasına təkan verəcək. Bir daha xoş gəlmisiniz».

Sergey Lavrov Prezident İlham Əliyevə səmimi qəbul üçün təşəkkürünü bildirib, ikitərəfli görüşlərin əhəmiyyətini qeyd edib: «İlin sonunadək hökumətlərarası ticari-iqtisadi komissiyanın iclası, Rusiya-Azərbaycan Regionlararası Forumu, Azərbaycan və Rusiya prezidentlərinin birgə himayəsi ilə keçirilən ənənəvi, V Bakı Beynəlxalq Humanitar Forumu nəzərdə tutulub. Sözsüz ki, Azərbaycanın xarici işlər nazirinə və mənə də hər halda indiki mərhələdə dövlət başçıları tərəfindən hər hansı bir müdaxilənin tələb olunmadığı barədə fikrinizi eşitmək bizə xoşdur. Biz bütün istiqamətlərdə əməkdaşlığın inkişafında maraqlıyıq. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Rusiya tərəfinin təşəbbüsünə Sizin münasibətinizi yüksək qiymətləndiririk. Proses həqiqətən gedir və Prezident Putin Sankt-Peterburq görüşünün nəticəsindən razıdır. Sizin dediyiniz kimi, mən Prezidentin tapşırığı ilə hər iki ölkənin paytaxtına səfər etmişəm. Hesab edirəm ki, bugünkü görüş tamamilə konkret planda daha dəqiq addımları müəyyənləşdirməyə kömək edəcək».

# Azərbaycan-NATO tərəfdaşlığı beynəlxalq hüququn və təhlükəsizliyin bölünməzliyi prinsiplərinə əsaslanır

İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun Sammitində iştirak etmək üçün Polşanın paytaxtı Varşavaya işgüzar səfərə gəlib. Dövlətimizin başçısı iyulun 8-də Sammitin açılış mərasimində iştirak edib.




İyulun 9-da NATO-nun Varşava Sammitində «Dövlət və hökumət başçıları səviyyəsində «Qətiyyətli dəstək» missiyası çərçivəsində aparılan əməliyyatlarda iştirak edən tərəfdaş dövlətlərlə Əfqanıstan üzrə görüş» mövzusunda sessiyada Prezident İlham Əliyev çıxış edib: «Cənab baş katib, həmkarlar. Əfqanıstanın təhlükəsizliyi və davamlı inkişafı regional və qlobal sabitlik üçün olduqca əhəmiyyətlidir. NATO-nun etibarlı tərəfdaşı və Əfqanıstanın dostu kimi Azərbaycan «Qətiyyətli dəstək» missiyasına əsgərləri vasitəsilə verdiyi nəzərəçarpan töhfəsini davam etdirəcək və müxtəlif növ tranzit daşımalarını təmin edəcək.

Azərbaycan Əfqanıstanın milli ordusunun Qəyyumluq Fonduna artıq bir neçə dəfə əhəmiyyətli yardımlar göstərib. Biz götürdüyümüz öhdəliklərə uyğun olaraq, həmin Fondu maliyyə baxımından dəstəkləməkdə davam edəcəyik. Biz Əfqanıstan ilə uzunmüddətli siyasi tərəfdaşlığa və praktiki əməkdaşlığa sadiq qalırıq və «Qətiyyətli dəstək» missiyası başa çatdıqdan sonra geniş Davamlı Tərəfdaşlıq Proqramı çərçivəsində töhfəmizi verməyi nəzərdə tuturuq.

Azərbaycanın Əfqanıstanda sabitliyə və inkişafa verdiyi töhfə NATO əməliyyatlarındakı iştirakımızdan əlavə olaraq həyata keçirilir. Biz hərbi tədris, təhsil, infrastruktur, daşıma, sərmayələr və qadınların cəmiyyətdə rolunun artırılması kimi sahələrdə praktiki yardım göstərməklə, Əfqanıstanı etibarlı gələcəyə doğru islahatlar yolunda ikitərəfli qaydada dəstəkləyirik.

Azərbaycan yaxın gələcəkdə başa çatdırılacaq Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsinə əhəmiyyətli dərəcədə maliyyə və texniki dəstəyini göstərib. Bu layihə Avropa və Asiyanın dəmir yolu xətlərini Azərbaycan vasitəsilə birləşdirəcək. Əfqanıstan, həmçinin, bu mühüm daşımalar şəbəkəsinə qoşula bilər. Xəzər regionunda ölkəmizin ən iri Beynəlxalq Ticarət Limanının tikintisi Avrasiyada əməkdaşlıq üçün yeni imkanlar yaradır. Əminəm ki, Əfqanıstan, həmçinin bu layihədən faydalanacaq.

Azərbaycan-NATO tərəfdaşlığı beynəlxalq hüququn və təhlükəsizliyin bölünməzliyi prinsiplərinə əsaslanır. Əfsuslar olsun ki, həmin prinsiplər hələ də pozulur. Azərbaycanın ərazisinin təxminən 20 faizini silahlı qüvvələri ilə işğal etmiş və bir milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə aparmış, hərbi cinayətlər törətmiş Ermənistanın Azərbaycana qarşı davamlı şəkildə gücdən istifadəsi nəinki ölkəmizin ərazi bütövlüyünü pozur, o cümlədən regional təhlükəsizliyə ciddi təhdid yaradır. İyirmi ildən artıqdır ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrini yerinə yetirməkdən imtina edir. Biz status-kvonun qəbuledilməzliyini bəyan edən ATƏT-in Minsk qrupunun həmsədrlərinin, eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatlarını dəstəkləyirik. Status-kvonun dəyişdirilməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsi deməkdir. Biz Varşava Sammitinin Bəyannaməsində bir daha qeyd edildiyi kimi, Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə NATO-nun yenidən verdiyi dəstəyi yüksək dəyərləndiririk.

Sağ olun».

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev Polşaya səfəri çərçivəsində bir sıra mühüm görüşlər keçirib. İyulun 8-də ABŞ-ın dövlət katibi Con Kerri ilə görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmin gün ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorlik, İqor Popov, Pyer Andryö və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə də görüşən dövlətimizin başçısının daha sonra Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani və Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşü olub.

Həmin gün Prezident İlham Əliyev Almaniyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Frank-Valter Ştaynmayer ilə də görüşüb. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında geniş fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Varşavada Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşüb. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Münaqişənin danışıqlar yolu ilə həllinin məqsədəuyğunluğu bildirilib. Fransa Prezidenti bu məsələnin həllinə fəal dəstək verəcəyini vurğulayıb. Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin mövcud vəziyyəti və perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev: «2016-cı il Azərbaycanda dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq»

*Əvvəli 1-ci səhifədə*

Vaşinqtonda Nüvə Sammitində Azərbaycan fəal iştirak etmişdir. Bizim o Sammitə dəvət olunmağımız ölkəmizin nüfuzunu göstərir. Çünki Azərbaycan nüvə dövləti deyil və Azərbaycanda nüvə tədqiqatları demək olar ki, aparılmır. Ancaq buna baxmayaraq, Azərbaycan oraya dəvət edilmiş ölkələrin sırasında idi. Eyni zamanda, Sammit çərçivəsində Amerikanın yüksək səviyyəli rəhbərləri ilə - Prezident, dövlət katibi ilə mənim çox səmərəli görüşlərim olmuşdur.



Türkiyədə iki beynəlxalq tədbirdə iştirak etmişəm. İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü keçirilmişdir və orada aprel döyüşləri ilə bağlı Azərbaycanın mövqeyi tam dəstəklənmişdir. Yekun bəyannamədə Azərbaycanın ərazi bütövlüyü məsələləri əks olunmuşdur və münaqişənin bu prinsiplər əsasında həlli qeyd edilmişdir. Bununla bərabər, münaqişə ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində kontakt qrupu da yaradıldı. Bu da bizim böyük diplomatik uğurumuzdur. Türkiyədə digər mötəbər beynəlxalq tədbirdə - Dünya Humanitar Sammitinin işində Azərbaycan çox fəal iştirak etmişdir. Bu səfərlərlə yanaşı, ikitərəfli formatda bir neçə səfər təşkil edilmişdir - Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə və Almaniyaya. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı iki görüş keçirilmişdir. May ayında Vyanada, iyun ayında isə Sankt-Peterburqda.

Yəni bütün bu beynəlxalq tədbirlər və Azərbaycanın o tədbirlərdə fəal iştirakı ölkəmizin önəmini göstərir, eyni zamanda, bizim üçün yeni imkanlar açır. Hər bir beynəlxalq tədbirdə Azərbaycanın mövqeyi səslənir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı. Dünən Varşavada NATO-nun Zirvə görüşündə də çıxışımın demək olar ki, yarısını mən bu mövzuya həsr etmişəm və orada iştirak edən dövlət və hökumət başçıları bir daha həqiqətləri eşidiblər. Ermənistanın yalanları artıq heç kimə təsir göstərmir. Onlar diaspor imkanlarından və bizim beynəlxalq səviyyədə o qədər də çıxışımızın olmamasından istifadə edərək münaqişə ilə bağlı yalan məlumatlar yayırdılar. İndi artıq o dövr arxada qalıb. Həqiqət ondan ibarətdir ki, Azərbaycan haqlıdır və beynəlxalq hüququn normaları bu münaqişə ilə bağlı tam şəkildə tətbiq edilməlidir.

Münaqişənin həlli ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm ki, bu il, xüsusilə son üç-dörd ay ərzində danışıqlar prosesində bəlkə də tarixdə görünməyən fəallıq müşahidə olunur. Aprel hadisələrindən sonra may ayında Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə Vyanada görüş keçirilmişdir. Düzdür, Ermənistan tərəfi görüşün keçirilməsi üçün bir neçə şərt irəli sürmüşdür. Bu şərtləri irəli sürərək özlərini bir daha gülünc vəziyyətə qoymuşdular. Çünki yaxşı bilirdilər ki, Azərbaycan heç bir şərtlə razılaşmayacaq. Danışıqlar prosesi bizə də, onlara da lazımdır. Aprel hadisələri bunu bir daha göstərib. Əgər danışıqlar prosesi pozularsa və Ermənistan yenə də öz təxribatçı fəaliyyətini davam etdirərsə, vəziyyət dəyişə bilər.

Beləliklə, may ayında keçirilmiş görüşə Azərbaycan heç bir şərt qəbul etmədən qatılıb və öz mövqeyini ifadə edib. May görüşündə Azərbaycan tərəfindən hər hansı bir sənəd, yaxud da ki, bəyanat nə imzalanıb, nə də qəbul edilib. Həmsədr ölkələr bəyanat qəbul ediblər, amma o bəyanat onların daxili işidir. İyun ayında Rusiya tərəfinin təşəbbüsü, Prezident Putinin dəvəti ilə Sankt-Peterburqda görüş keçirilmişdir. O görüş də çox müsbət keçmişdir və müəyyən ümidlər yaratmışdır. Məhz buna görə görüşün nəticəsində birgə bəyanat qəbul edilmişdir. Bu bəyanat mətbuatda dərc edilib. Hesab edirəm ki, Azərbaycan dövlətinin mövqeyi o bəyanatda kifayət qədər geniş yer alıbdır.

Dünən Fransa Prezidenti cənab Ollandla görüşüm olubdur. Fransa da həmsədr ölkə kimi münaqişənin həlli üçün çalışır. Biz əslində Minsk qrupunun fəallığını müşahidə edirik. Həm Amerika, həm Rusiya, indi də Fransa Prezidenti bu məsələ ilə çox ciddi məşğuldurlar. Danışıqlar indi fəal mərhələyə keçməlidir və Ermənistan konstruktiv mövqe nümayiş etdirməlidir. Yəni, artıq məsələnin mərhələli yollarla həlli bütün həmsədr dövlətlər tərəfindən, ATƏT tərəfindən qəbul edilir. Biz həmişə demişik və deyirik, bunun başqa yolu yoxdur. Məsələ mərhələli yolla həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. İkinci erməni dövləti yaradıla bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilə bilməz. Bunu artıq beynəlxalq ictimaiyyət qəbul edir. Əvvəlki dövrlərdə biz başqa fikirlər eşidirdik. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bəzi hallarda beynəlxalq hüquq, BMT-nin qətnamələri kənarda qalırdı və Dağlıq Qarabağın gələcəyi ilə bağlı həqiqətə, o cümlədən tarixi həqiqətə uyğun olmayan müxtəlif təkliflər irəli sürülürdü. Bütün bunlar artıq keçmişdə qaldı. Məsələnin mərhələli yollarla həlli yeganə mümkün variantdır. Əgər bu variant reallaşarsa, onda həm torpaqlarımız işğalçılardan azad ediləcək, eyni zamanda, Dağlıq Qarabağın erməni əhalisi və mütləq oraya qayıdacaq azərbaycanlılar sülh, təhlükəsizlik şəraitində yaşayacaqlar. Bunun başqa həlli yolu yoxdur.

Qeyd etməliyəm ki, son 3-4 ay ərzində danışıqlarda çox böyük fəallıq müşahidə edilir. Təbiidir, Ermənistan indi hər vəchlə çalışacaq ki, danışıqlar prosesinə yenə də zərbə vursun. Yenə də çalışacaq ki, vaxtı uzatsın. İstisna edilmir ki, təmas xəttində növbəti təxribata əl atmaqla danışıqları pozsun. Necə ki, 2014-cü ildə Parisdə Prezident Ollandın təşəbbüsü ilə keçirilmiş çox müsbət danışıqlardan sonra bir həftə keçməmiş Ağdam rayonunda onlar genişmiqyaslı hərbi təlimlər keçirmişdilər. Bu, sırf təxribat idi və bunu indi hamı bilir, beynəlxalq ictimaiyyət də bilir. Bunu bəyan etməsələr də bilirlər. Həmin təxribat zamanı mövqelərimizə qəsdən hücum çəkmişlər ki, biz o helikopteri vuraq və ondan sonra bizi təcavüzkarlıqda ittiham etsinlər, danışıqlar pozulsun və pozuldu da. 2015-ci il danışıqlar prosesi üçün itirilmiş il olmuşdur. Sadəcə olaraq, Minsk qrupu dekabr ayında görüntü naminə İsveçrədə formal görüş keçirmişdir. O görüşdən sonra görünür Ermənistan tərəfi görüb ki, bu proses fəallaşa bilər və aprel ayında növbəti təxribat törətmişdir. Ona görə məsələ ilə məşğul olan böyük dövlətlər bütün bu reallıqları bilməlidirlər. Əslində, bilirlər. Mən ikitərəfli formatda Azərbaycanın mövqeyini, real məsələnin bu tarixini və münaqişənin səbəblərini açıqlamışam. Ona görə hesab edirəm ki, indiki dövrdə yaxşı imkanlar yaranıb. Ümid edirəm ki, bu proses müsbət nəticələrə gətirib çıxaracaq».

Çıxışında iqtisadi inkişaf proseslərindən də danışan Prezident İlham Əliyev cari ilin altı ayında ümumi daxili məhsulun azalmasına baxmayaraq, sənaye və kənd təsərrüfatında, o cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu deyib. Bildirib ki, ötən 6 ayda ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub və xarici investorlar üçün Azərbaycan cəlbedici ölkə olaraq qalır. İlin birinci yarısında 78 min daimi iş yeri açılıb, sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb: «2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Düzdür, biz bu islahatları uzun illərdir ki, aparırıq. Ancaq əvvəlki dövrdə vəziyyət başqa idi. Neft hasilatı artırdı. Neftin qiyməti 100 dollardan çox idi. Beləliklə, bizim əsas vəzifəmiz infrastruktur layihələrinin - həm sosial infrastruktur, həm digər infrastruktur layihələrinin icrası idi. Çox böyük vəsait ayrılırdı. Biz elektrik enerjisi, qazlaşdırma, kənd yollarının tikintisi ilə bağlı əsas infrastruktur layihələrini qısa müddətdə icra etdik. Hələ ki, bu istiqamətdə işlər davam edir, amma infrastruktur layihələrinin böyük əksəriyyəti artıq reallaşıb.

## Ötən 6 ayda ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub, 78 min daimi iş yeri açılıb, sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb

İndi vəziyyət tam başqadır. Mən artıq dəfələrlə demişəm, biz postneft dövründə yaşayırıq. Düzdür, bir neçə ildən sonra Azərbaycan dünya bazarlarına çox böyük həcmdə təbii qazı da ixrac etməyə başlayacaq və yenə də valyuta axını artacaq. Ancaq biz elə yaşamalıyıq ki, artıq postneft dövründəyik və belə olan halda, əlbəttə, ciddi, daha da dərin iqtisadi islahatlar aparılmalı idi və aparılır. Həm maliyyə-bank sektorunda, həm də kənd təsərrüfatının, sənaye potensialımızın inkişafı ilə bağlı çox ciddi islahatlar aparılır. İxracın stimullaşdırılması, investisiya cəlb edilməsi üçün çox böyük güzəştlər tətbiq olunur. Eyni zamanda, vergi sahəsində, xüsusilə gömrük sektorunda ciddi islahatlar aparılır. Bu il gömrük orqanlarından daxilolmalar plandan 17 faiz artıq yığılıbdır. Bu, çox müsbət nəticədir. Vergi orqanlarında yığım plandan 2 faiz artıq təmin edilib. Amma orada da böyük ehtiyatlar var. Hesab edirəm ki, vergi sistemində aparılan islahatlar ilin sonuna qədər bütün bu vəziyyəti şəffaflaşdıracaq. Necə ki, gömrük orqanlarında bütün məsələlər şəffaf şəkildə öz həllini tapır. Təbii ki, bunu həm insanlar, biznesmenlər, iş adamları görür, eyni zamanda, büdcəyə daha da böyük həcmdə vəsait daxil olur. Yəni, bütün sahələrdə islahatlar dərinləşməlidir, şəffaflıq təmin edilməlidir, nəzarət, maliyyə nəzarəti daha da gücləndirilməlidir. Belə olan halda biz neftdən asılılığı tamamilə aradan götürəcəyik. Məsələ məhz belə qoyulub. Bir neçə il ərzində dövlət büdcəmiz, onun mütləq əksəriyyəti qeyri-neft sektoru hesabına təmin edilməlidir. Ondan sonra neftin qiyməti qalxdı-düşdü, bunun heç bir əhəmiyyəti olmayacaq».

*Sonra müdafiə sənayesi naziri Yavər Camalov, kənd təsərrüfatı naziri Heydər Əsədov, «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə 2016-cı ilin 6 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.*

Prezident İlham Əliyev yekun nitqində prioritet istiqamətlər üzrə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin vacibliyini vurğulayıb. Əsassız yoxlamaların azaldılması ilə bağlı verdiyi tapşırıqların müvəffəqiyyətlə icra olunduğunu deyən Prezident İlham Əliyev 2016-cı ilin ikinci yarısının da uğurlu olacağına əminliyini ifadə edib: «İlin sonuna qədər biz fəal işləməliyik ki, qarşıda duran bütün vəzifələri icra edək. Bir daha qeyd etmək istəyirəm, ötən altı ayın nəticələri göstərir ki, Azərbaycan 2016-cı ili də uğurla başa vuracaq. Əlbəttə ki, biz əsas prioritet istiqamətlər üzrə işimizi daha da təkmilləşdirməliyik. Bu gün çıxışlarda da həm görülmüş və görüləcək işlər, həm də əsas prioritet istiqamətlər haqqında məlumatlar verildi. Əslində, bu gün çıxışlarda səslənən fikirlər bizim gələcək fəaliyyətimizin istiqamətlərini müəyyən edir, yəni, bir daha göstərir ki, sənaye potensialı və kənd təsərrüfatı gələcək inkişaf üçün əsas rol oynayacaq. 2016-cı ilin birinci yarısının iqtisadi göstəriciləri də çox ümidvericidir».

Azərbaycanda bir neçə sənaye mərkəzi yaradılmalı olduğunu deyən Prezident İlham Əliyev Bakı Cənubi Qafqazın ən böyük sənaye şəhəridir: «Gəncə, Sumqayıt və eyni zamanda, Mingəçevir şəhərində çox böyük sənaye potensialı, çox hazırlıqlı kadr potensialı var. Bu il Mingəçevir şəhərində yüngül sənaye kompleksinin təməli qoyulmalıdır. Bu, Mingəçevirdə işsizlik problemlərinin həllinə çox müsbət təsir göstərəcək və biz çox böyük, yeni sənaye mərkəzini yaradacağıq. Mingəçevirdə bir neçə böyük sənaye müəssisəsinin tikintisi nəzərdə tutulur. Burada da yüngül sənaye inkişaf edəcək. Yaxın zamanlarda minlərlə iş yeri açılacaqdır. İlk növbədə bu müəssisələrin inşası zamanı və ondan sonra həmin müəssisələrdə işləyəcək insanların sayı minlərlə ölçüləcək. Beləliklə, biz yeni sənaye mərkəzi yaradacağıq və insanları işlə təmin edəcəyik. Bu ilin sonuna qədər artıq birinci müəssisənin təməl daşı qoyulmalıdır və əminəm ki, qoyulacaqdır.

Bildiyiniz kimi, artıq müəyyən müddət ərzində hər bir rayonda sənaye zonalarının yaradılması istiqamətində iş aparılır. Birinci pilot layihə Neftçala rayonunda icra edilir. Neftçalada artıq səkkiz layihə hazırdır və bu layihələrin icrasına 40 milyon manat investisiya qoyulacaq. İkinci sənaye zonası Masallı şəhərində yaradılacaqdır. Masallı sənaye zonasında fəaliyyət göstərmək üçün sahibkarlar tərəfindən 33 layihə təqdim olunub. Bu layihələrin investisiya həcmi 31 milyon manatdır. Bu, çox müsbət inkişafdır. Bu, onu göstərir ki, bizim qəbul etdiyimiz qərarlar icra edilir. Əminəm ki, digər şəhər və rayonlarımızda da buna oxşar proseslər sürətlənəcək. Çünki hər bir rayonda sənaye potensialının inkişafı üçün gözəl imkanlar var. Biz ilk növbədə özümüzü bütün sənaye məhsulları ilə təmin etməliyik. Eyni zamanda, çox ciddi ixrac potensialı da yaratmalıyıq və xarici bazarlara çıxmalıyıq. Bununla bərabər, bu, məşğulluq problemlərinin həllinə də çox müsbət təsir göstərəcəkdir.

Bu yaxınlarda «Azərxalça» Səhmdar Cəmiyyəti yaradılıbdır. Xalçaçılıq sənəti bizim milli sərvətimizdir. Əsrlər boyu Azərbaycan xalçaçılığı inkişaf etdiribdir və Bakının mərkəzində - Bulvarda açılmış Xalça Muzeyi həm özlüyündə bir memarlıq əsəridir və eyni zamanda, bizim qədim sənətimizi bütün dünyada nümayiş etdirir. Ancaq əfsuslar olsun ki, xalçaçılıq sənaye kimi Azərbaycanda az inkişaf edib. Ancaq fərdi qaydada bu sahə ilə məşğul olanlar xalça toxuyurlar və bunu həm ölkə daxilində, həm də xaricə sata bilirlər. Nəzərə alsaq ki, bu sahədə bizim böyük ənənələrimiz var, xalça sənəti Azərbaycan xalqının böyük sərvətidir və dünya miqyasında biz qabaqcıl yerlərdəyik, ona görə qərar qəbul edilib ki, bu məsələlər məqsədyönlü şəkildə öz həllini tapsın. Həm bu qədim sənət yaşasın, kadrlar axını təmin edilsin, eyni zamanda, biz xalçaçılıq sənayesini də yaradaq. Bu, ixrac yönümlü məhsul kimi ölkəmizə böyük həcmdə valyuta gətirəcək.

Artıq bütün struktur məsələləri öz həllini tapıb. Eyni zamanda, Prezident Administrasiyasına göstəriş verilib ki, müxtəlif bölgələrdə yerlər ayrılsın və xalçaçılıqla məşğul olanlar orada işləsinlər. Göstəriş artıq icra edilir. Dövlət tərəfindən bütün lazımi avadanlıqlar, dəzgahlar təmin edilir və ediləcək. Birinci mərhələdə min və ondan sonrakı mərhələlərdə 5 min iş yeri açılacaq. Həm məşğulluq təmin olunacaq, - xüsusilə nəzərə alsaq ki, daha çox qadınlar bu işlərlə - toxuculuqla, xalçaçılıqla məşğuldurlar, - biz qadınları işlə təmin edəcəyik və həm də ixrac məhsulu yaranacaq. Beləliklə, biz burada bir neçə məqsədi təmin edəcəyik. Bir sözlə, sənaye potensialımızın inkişafı əsas prioritet məsələlərdən biridir. Bu il və növbəti illərdə bu sahəyə diqqət göstəriləcək».

Azərbaycanda sahibkarlığın inkişafına dövlət dəstəyinin bundan sonra da davamlı xarakter alacağını vurğulayan Prezident İlham Əliyev bu il ərzində sahibkarlara güzəştli şərtlərlə 73 milyon manat kredit verildiyini bildirib: «Bu vəsaitin 77 faizi əvvəlcə verilmiş kreditlərin qaytarılması hesabına verilib. Bu da çox müsbət haldır, dövlət büdcəsinə daha az yük düşür və kreditlərin 80 faizi aqrar sektora verilib. Bu da bizim siyasətimizi əks etdirir. Kreditlərin 74 faizi regionlara verilir. Regional inkişaf proqramının icrası sürətlə davam etdirilir.

Biz indi çox güclü qeyri-neft ixracı potensialı yaradırıq və eyni zamanda, institusional tədbirlər də görülür və görülməlidir ki, biz ixracı stimullaşdıraq, sahibkarlar xaricə daha çox məhsul satmaqda maraqlı olsunlar. Bu məqsədlə təşviq mexanizmi artıq tətbiq olunur. Mən əminəm ki, bunun çox müsbət təsiri olacaq və sahibkarlar da bundan istifadə edəcəklər. Yəni, bir sözlə, dövlət həm əkin sahələrinə, həm yanacağa, həm gübrəyə subsidiyalar, sahibkarlara aşağı faizlə güzəştli şərtlərlə 1 milyard manatdan çox kreditlər verir. Dövlət sahibkarlara tövsiyələr verir, metodik sənədlər təqdim edir ki, onlar öz biznesini necə qursunlar. Dövlət kənd təsərrüfatı texnikasını alır, aqrolizinq yolu ilə fermerlərə verir, gübrə zavodunu tikir, - indi pestisid zavodunun tikintisi də nəzərdə tutulur, - suvarma işlərini təmin edir, yüz milyonlarla, milyardlarla manat dəyərində olan böyük Şəmkirçay, Taxtakörpü su anbarlarını yaradır, dağ çaylarının kanallar vasitəsilə bu anbarlara qoşulmasını təmin edir. Eyni zamanda, dövlət fermerlərdən xaricə göndərmək üçün yardım formasında məhsulu almağa da hazırdır.

Yəni, dövlət hər şey edir. Hansı başqa ölkədə fermerlərə bu qədər dəstək göstərilir?! Fermerlər vergilərdən ancaq torpaq vergisi verirlər, bütün başqa vergilərdən azaddırlar. Yəni, ikinci belə ölkə tapmaq mümkün deyil ki, dövlət bu qədər dəstək göstərir. Əlbəttə ki, biz nəticə gözləyirik. Nəticə də elə fermerlərin xeyridir. Qoy, onlar daha da yaxşı yaşasınlar, daha da çox pul qazansınlar, iş görsünlər, investisiya qoysunlar və ixrac potensialımızı artırsınlar. Əminəm ki, biz bu yolla Azərbaycanı müasir kənd təsərrüfatı məhsullarının ixracını təşkil edən bir ölkə kimi dünyada təqdim edəcəyik. Əlbəttə ki, biz yeni bazarlara çıxmalıyıq. Ənənəvi bazarlar var, çox yaxşıdır. Biz çalışmalıyıq ki, inkişaf etmiş ölkələrin bazarlarına çıxaq. Buna da nail olmaq üçün əlbəttə ki, keyfiyyət və standartlaşma ən yüksək səviyyədə olmalıdır».

Ölkədə korrupsiyaya və rüşvətxorluğa qarşı ciddi mübarizə aparıldığını xüsusi vurğulayan Prezident İlham Əliyev bu sahədə aparılan islahatların öz səmərəsini verdiyini bildirib: «Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə sahəsində həm inzibati tədbirlər, cəza tədbirləri və struktur xarakterli tədbirlər də görüləcək. Mən bir rəqəmi də ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, yoxlamalarla bağlı mənim çox ciddi tapşırıqlarım olmuşdur. Bu yoxlamalar insanları demək olar ki, bezdirmişdi, imkan vermirdi ki, sahibkarlar rahat nəfəs alsınlar. Çox ciddi göstərişlər, tapşırıqlar verilmişdir. Bu ilin altı ayında vergi yoxlamaları istisna olmaqla cəmi 56 yoxlama keçirilmişdir. Müqayisə üçün deyim ki, keçən il 40 min yoxlama keçirilmişdir. Baxın, 40 min və 56. Burada da heç bir şərhə ehtiyac yoxdur. Bax, belə olmalıdır. Amma bu 40 min yoxlamanın arxasında nələr dayanır?! Bunu bu yoxlamalara məruz qalmış insanlar yaxşı bilirlər. Biz onların canını bu işlərdən qurtardıq. Ona görə, hər bir sahədə belə olmalıdır. Şəffaflıq, dürüstlük, təmizlik - bu, norma olmalıdır. Mən indi bunu, sözün düzü, qürur hissi ilə qeyd edirəm. Amma bu, norma olmalıdır. Norma bu olmalıdır, 40 min yoxlama norma olmamalıdır».

Çıxışının sonunda 2016-cı ilin birinci yarısının yekunlarının qaneedici olduğunu bəyan edən dövlətimizin başçısı qarşıya qoyulan bütün vəzifələrin vaxtlı-vaxtında və keyfiyyətlə yerinə yetiriləcəyinə, Azərbaycanın bu ili də yüksək nəticələrlə başa vuracağına əminliyini ifadə edib.

# Proqnoz tapşırığı artıqlaması ilə yerinə yetirilib

2016-cı ilin yanvar-iyun ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 3 milyard 190 milyon 139,33 min manat vəsait daxil olub, proqnoz tapşırığına 102 faiz əməl edilib.

İlin ilk altı ayı ərzində 53 min 221 vergi ödəyicisi qeydiyyata alınıb.

# Vergi ödəyicilərinin qanuni mənafeləri müdafiə olunur

Bu ilin birinci yarısında Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurasının icraatına 74 müraciət daxil olmuşdur. Bu müraciətlərdən 16-sı kameral vergi yoxlamaları, 41-i səyyar vergi yoxlamaları, 15-i operativ vergi nəzarətinin nəticələri, 2-si vergi hesabatının vaxtında təqdim olunmamasına görə tətbiq edilmiş maliyyə sanksiyası ilə bağlı olmuşdur. Şurada baxılaraq müvafiq qərarlar qəbul edilmiş 74 müraciətdən 26-sı vergi qanunvericiliyinin pozulmasında vergi ödəyicisinin təqsiri ilə bağlı şübhələrin olması, analoji vergi ödəyicisinin Vergi Məcəlləsinin tələblərinə uyğun seçilməməsi, vergidən yayınma halını təsdiq edən sübutların olmaması, vergi ödəyicisinin dövlət büdcəsinə etdiyi ödənişlər, sosial vəziyyət nəzərə alınaraq, habelə sahibkarlıq fəaliyyətinin təşviqi, vergi ödəyicilərinin fəaliyyətinin davam etdirilməsinin stimullaşdırılması məqsədilə tam təmin edilmişdir.

Dövr ərzində Şurada 10 müraciətin qismən təmin olunması barədə müvafiq qərarlar qəbul edilmişdir. Altı müraciət üzrə mübahisələndirilən dövr əhatə olunmaqla növbədənkənar səyyar vergi yoxlaması təyin olunmuşdur. Bundan əlavə, eyni predmet üzrə iddia ərizələrinə məhkəmə qaydasında baxıldığı üçün «İnzibati icraat haqqında» Qanunun 72.2-ci maddəsi rəhbər tutularaq, 14 müraciətin icraatına xitam verilmişdir.

# Kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarları dəyişib

Nazirlər Kabinetinin 29 iyun 2016-cı il tarixli qərarı ilə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarında dəyişiklik edilib. Yeni dəyişikliyə görə, illik gəliri 200 min manatadək olan sahibkarlıq subyektləri bundan sonra kiçik sahibkar hesab ediləcəklər.

Bu vaxta qədər isə kiçik sahibkarlıq kateqoriyasına aid olmaq üçün illik gəlir 120 min manat təşkil etməli idi. Kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsində işçilərin orta sayı isə (25 nəfərədək) dəyişməz qalıb.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin rəisi Nicat İmanovun sözlərinə görə, Vergi Məcəlləsinin 13.2.50-ci maddəsində iri vergi ödəyicilərinin meyarları müəyyən edilib: «Əvvəlki 3 ilin hər birində mülkiyyətində olan əsas vəsaitlərin ilin sonuna qalıq dəyəri 2.500.000 manatdan və əvvəlki 3 il üzrə orta illik dövriyyəsi (ƏDV-siz) 1.250.000 manatdan çox olan və ya son 3 vergi ili ərzində bu Məcəllə ilə müəyyən edilmiş bütün vergi və vergi olmayan digər ödənişlərin hesablanmış məbləği hər il üçün 500.000 manatdan çox olan vergi ödəyiciləri iri vergi ödəyicisi sayılır. Məcəllənin 13.2.50.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq təbii inhisarçılara və ya bazarda hökmran mövqe tutan subyektlərə aid olunan vergi ödəyiciləri, o cümlədən onların Azərbaycan Respublikasının rezidenti olan törəmə təsərrüfat cəmiyyətləri də iri vergi ödəyicisi sayılır.

Vergi Məcəlləsinin 1 yanvar 2016-cı il tarixdən qüvvəyə minmiş yeni müddəalarına əsasən, vergi tutulan əməliyyatlarının həcmi 200.000 manat və ondan az olan şəxslər 2 faiz və ya 4 faiz dərəcə ilə sadələşdirilmiş vergitutma metodunu tətbiq edə bilərlər. Dəyişikliyə qədər həmin məbləğ 120.000 manat təşkil edirdi. Bununla da kiçik sahibkarlıq subyektlərinə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnun verilməsi həmin vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığını sadələşdirməklə yanaşı, adıçəkilən vergi ödəyicilərinin vergi yükünün azaldılması, ticarət dövriyyələrinin şəffaflaşdırılması, dövriyyə vəsaitlərinə qənaət olunması və vergitutma obyektinin genişləndirilməsi məqsədini daşıyır. Vergi Məcəlləsində aparılmış bu dəyişikliyə uyğun olaraq, Nazirlər Kabinetinin 29 iyun 2016-cı il tarixli 258 nömrəli Qərarı ilə kiçik sahibkarların illik gəlir meyarı 120.000 manatdan 200.000 manatadək artırılmışdır».

İqtisadçı ekspert Samir Əliyev kiçik sahibkarlıq kateqoriyasına mənsub olan fiziki və hüquqi şəxslərin illik gəlirinin artırılmasının 2015-ci ildə Vergi Məcəlləsinə edilmiş bir sıra dəyişikliklərdən qaynaqlandığını qeyd edib: «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 20 oktyabr 2015-ci il tarixli Qanunla sadələşdirilmiş vergi ödəyiciləri kateqoriyasına düşən şəxslərin dövriyyəsi 120 min manatdan 200 min manata qaldırıldıqdan sonra orta sahibkarlıq subyektlərinin bir hissəsi sadələşdirilmiş vergi ödəyicisi kateqoriyasına aid edilirdi. Bu isə kiçik və orta sahibkarlıq subyektlərinin eyni vergi rejimindən yararlanması anlamına gəlirdi. Halbuki kiçik sahibkarlıq subyektlərinə əlverişli vergi rejiminin tətbiqi dünyada geniş yayılıb və hökumətlər kiçik sahibkarlığın vergi yükünü azaltmağa önəm verirlər. Nazirlər Kabinetinin son qərarı kiçik sahibkarlığa aid olan subyektlərin sayının və əhatə dairəsinin artmasına gətirib çıxaracaq. Eyni zamanda, milli valyutanın 2015-ci ildəki devalvasiyası nəticəsində satılan malların, göstərilən xidmətlərin dəyərinin bahalaşması subyektlərin illik dövriyyəsinin artmasına gətirib çıxarıb. Belə vəziyyətdə bir sıra kiçik sahibkarlıq subyektləri yalnız qiymət amilinə görə orta sahibkarlıq kateqoriyasına aid edilirdi. Sadələşdirilmiş vergi rejimi kiçik sahibkarlıq, xüsusən də regionda fəaliyyət göstərən sahibkarlar üçün xeyli əlverişlidir».

Mütəxəssisin sözlərinə görə, kiçik, orta və iri sahibkar kateqoriyalarının müəyyənləşdirilməsi üçün «işçilərin orta siyahı sayı» və «illik gəlir» meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür. Yəni bu iki göstəricidən yalnız birinin yüksək kateqoriyaya aid olması həmin sahibkarın da yüksək kateqoriyaya aid olunması anlamına gəlir.

**AYTƏN**

# Qanunu pozanlara qarşı ciddi tədbirlər görülür

2016-cı ilin birinci yarısında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 242 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 52 milyon 33 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Departamentin İstintaq idarəsində 623 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 11 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 67 iş üzrə 77 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib. 155 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə, həmin işlərin icraatına xitam verilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 29 nəfər şəxs tutularaq departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 193 şəxsin məcburi qaydada gətirilməsi, 376 şəxsin tapılaraq istintaqa cəlb edilməsi, 430 şəxsin yerinin müəyyən olunaraq istintaq orqanlarına məlumat verilməsi təmin edilib.

Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına kömək göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 82 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunub.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2016-cı ilin iyun ayında Azərbaycanda **1,6 milyard** kilovat-saatdan çox elektrik enerjisi istehsal olunub.
- Ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı **1,91 milyonu** ötüb.
- İyun ayı ərzində İcbari Sığorta Bürosunun informasiya sistemində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə **84 min 292** müqavilə qeydiyyata alınıb.
- Bu ilin altı ayı ərzində Mədəniyyət və Turizm Nazirliyinin iştirakı ilə **13** beynəlxalq turizm sərgisində ölkəmizə məxsus milli stend quraşdırılıb. Sərgilərdə nazirliklə yanaşı, **30-dan çox** şirkət də iştirak edib.

# Sahibkarlığın inkişafı ölkənin tərəqqisi deməkdir



Azərbaycanda sahibkarlığın inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir və bu siyasətin uğurla həyata keçirilməsində, müasir sahibkarlıq subyektlərinin formalaşması və potensiallarından səmərəli istifadə etmələri üçün geniş imkanların yaradılmasında ayrı-ayrı ictimai qurumların da rolu böyükdür. Müsahibimiz Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar

***- Vüqar müəllim, Sizcə, sahibkarlığın inkişafı baxımından Azərbaycan iqtisadiyyatında aparılan islahatlar yeni iqtisadi reallıqlarla necə ayaqlaşır?***

- Son illərdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, neft sektorundan asılılığının azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin aradan qaldırılması və sair sosial yönümlü problemlərin həlli sahibkarlığın inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Neftin qiymətinin kəskin ucuzlaşması dünya ölkələrinə, xüsusən də büdcəsinin əksər hissəsini neft gəlirləri ilə formalaşdıran dövlətlərə xeyli ziyan vurdu. Bundan çıxış yolu kimi ölkə rəhbərliyinin apardığı islahatlar məhz qeyri-neft sektorunun inkişaf etdirilməsi və neftdən asılılığın minimum səviyyəyə endirilməsinə yönəldilmişdir.

İqtisadi böhrandan çıxmaq məqsədilə yerli istehsalı ayağa qaldırmaq, inkişaf etdirmək üçün qətiyyətli təşəbbüs, səfərbərlik mühiti yaşanır. İndi «Made in Azərbaijan»ın xarici bazarlara çıxarılması istiqamətində geniş iş aparmaq tələb olunur. Məqsəd budur ki, Azərbaycan istehsalı olan məhsullara xaricdə tələbat formalaşsın.

***- Vergi sistemindəki dəyişikliklər ölkənin sahibkarlıq mühitində necə əks-səda yaratmışdır?***

- Əminik ki, vergi sistemindəki dəyişikliklər vergi idarəçiliyinin təkmilləşdirilməsi, vergi nəzarətinin gücləndirilməsinə, vergi gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına və vergi ödəmələrindən yayınma hallarının azalmasına, vergiqoyma bazasının genişlənməsinə və yeni vergi gəlirləri mənbələrinin aşkarlanmasına gətirib çıxaracaqdır. Vergi potensialının müəyyən edilməsi, vergi güzəştlərinin hesablanması və qiymətləndirilməsi ilə bağlı görülən tədbirlər, bütövlükdə ölkə iqtisadiyyatını əhatə edən geniş məlumat bazası vergi sisteminin inkişafının monitorinqini aparmağa və onun obyektiv qiymətləndirilməsinə imkan yaradacaqdır.

***- Bu sahədə hansısa təklifləriniz varmı?***

- İnternet vasitəsilə elektron ticarətin həyata keçirilməsi dünyada gedən qloballaşma prosesinin tərkib hissələrindəndir. Son dövrlərdə inkişaf etmiş ölkələr də artıq yeni inkişaf mərhələsinə - vahid informasiya cəmiyyətinin yaradılması mərhələsinə daxil olmaqdadır. Sahibkarlıq fəaliyyəti sahəsində bu istiqamətdə baş verən yeni dəyişikliklər biznesin elektron qaydada aparılmasında və ya elektron ticarətin tətbiqində öz əksini tapmışdır. Hazırda sahibkarlıq fəaliyyətinin bütün sahələrinə, o cümlədən elektron ticarətə vergi nəzarəti Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada aparılır. Lakin vergi nəzarətinin təkmilləşdirilməsi çox vacib məsələdir. Yaxın gələcəkdə elektron ticarətə vergi nəzarətinin həyata keçirilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilərək təkmil vergi nəzarəti mexanizminin yaradılması ilə bağlı tədbirlərin görülməsi ölkədə özəl sektorun inkişafına töhfə verəcəkdir. Bundan əlavə, vergi inzibatçılığının daha da yaxşılaşdırılması, həm sahibkarların, həm də istehlakçıların maraqlarının müdafiəsi baxımından nağdsız ödənişlərin təşviqi önəmli məsələdir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası gələcəkdə özəl sektorun inkişafına töhfə verə biləcək bır sıra maraqlı təkliflər üzərində işləyir, yaxın günlərdə onları ümumiləşdirib İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim etməyi nəzərdə tuturuq. Ümid edirik ki, təkliflərimiz nəzərə alınacaq.

***- Konfederasiya kənd təsərrüfatı sahəsində çalışan iş adamları ilə münasibətlərini necə qurur?***

- Sahibkarların problemlərinin həll edilməsi, onların maarifləndirilməsi cəmiyyətin də marağındadır. Regionlarda sahibkarlığın inkişafının sürətləndirilməsi üçün iş adamlarının təşkilatlanmasına böyük ehtiyac var. Hazırda Milli Konfederasiya özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə yaxın iqtisadi və sosial yönümlü assosiasiya və ittifaqı birləşdirir ki, bunların bir qismini (40 faizi) kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar təşkil edir. Konfederasiya «Gəncə Aqrobiznes Assosiasiyası», «Gübrə Toxum və Pestisid Ticarətçilər Assosiasiyası», «Azərbaycan Quşçuluq Assosiasiyası» ilə sıx əməkdaşlıq edir, təsərrüfatlarının inkişaf etdirilməsi istiqamətində onlara müəyyən tövsiyələr verir. Mütəmadi olaraq beynəlxalq ekspertlərin iştirakı ilə təlimlər təşkil etməklə insanların aqrar sahəyə marağının artmasını təşviq edirik. Ölkəmizdə kənd təsərrüfatı sahəsində çalışan və bu sahədə bizneslərini inkişaf etdirən iş adamları az deyil. Pambıqçılıq, tütünçülük, üzümçülük, çayçılıq, taxılçılıq, heyvandarlıq (iri südçülük-maldarlıq kompleksləri), arıçılıq və digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamlarının sayı yetərli qədərdir. İnanıram ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda imzaladığı «Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamı bu sahəni stimullaşdırmaqla yanaşı, kənd təsərrüfatı ilə məşğul olan iş adamlarının sayının artmasına şərait yaradacaq.

Ölkədə kənd təsərrüfatının inkişafına töhfə verəcək yeni layihəyə artıq start vermişik. «Aqrar sahədə yeni yanaşmalar vasitəsilə effektivliyin artırılmasına yardım» adlı layihə kənd təsərrüfatında biznes quruculuğunun əsas komponentlərini - maliyyə-sığorta, aqrar sahədə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və kooperativlərin təşkili mövzularını əhatə edir. Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən maliyyələşdirilən layihədən Gəncə və Şamaxı ərazilərində kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan və ya bu sahədə biznes qurmaq arzusunda olan sahibkarlar faydalanacaqlar.

***- Adətən, idxal proseslərində yaranan obyektiv və subyektiv səbəblər daha aktual hesab edilir. Bəs ölkə sahibkarlarının öz məhsullarını xarici bazarlara çıxararkən müəyyən problemlərlə üzləşməmələri üçün hansı tədbirlərin görülməsini zəruri hesab edirsiniz?***

- Ölkədə istehsal edilən məhsulların rəqabət qabiliyyətinin artırılması və dünya miqyasında brendə çevrilməsi üçün iri investisiyaların qoyulmasına ciddi ehtiyac duyulur və dövlət tərəfindən bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Azərbaycan sahibkarları dünyaya çıxmaq üçün beynəlxalq biznes reallıqlarını dərindən bilməli və öz fəaliyyətlərini bu reallıqlara uyğun qurmağı bacarmalıdırlar. Sahibkarlar Konfederasiyası cari il ərzində daha çox fermerlərin maliyyə-sığorta, informasiya-kommunikasiya texnologiyaları və kənd təsərrüfatı menecmenti sahəsində təməl biliklərə yiyələnməsi, mövcud maliyyə mənbələri, kənd təsərrüfatında tətbiq olunan sığorta sistemi, informasiya-kommunikasiya texnologiyalarinin aqrar sahəyə tətbiqinin mahiyyəti və önəmi, təsərrüfatın kooperativ forması haqqında zəruri biliklərə yiyələnməsi istiqamətində iş aparacaq. İnanıram ki, aparacağımız maarifləndirmə tədbirləri nəticəsində sahibkarlar öz bizneslərini daha da inkişaf etdirəcək, müasir maliyyə menecmenti üsullarından, innovativ texnologiyalardan istifadə etməklə daha effektiv fəaliyyət göstərəcəklər. Sahibkarların öz təsərrüfatlarını sığorta etdirməsi, kooperativlərə qoşulması, daxili bazarda və ixrac zamanı tətbiq olunan standartlara uyğun məhsul emal edəcəyi əsas gözləntilərimizdir. Çalışırıq ki, banklar, kredit təşkilatları, sığorta şirkətləri ilə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən insanların görüşlərini təşkil edək, sahibkarların yeni model fermer təsərrüfatları ilə işləmək istiqamətində maraqlarını artıraq.

Sonda qeyd etmək istərdim ki, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası zamanın tələblərini nəzərə alaraq, gündəlik fəaliyyətini durmadan təkmilləşdirir, müasir biliklər təcrübəsindən, modern idarəçilik üsullarından real şəkildə bəhrələnməyə çalışır. Əmin olduğumu bildirirəm ki, bütün bunlar öz real bəhrəsini verəcək, müstəqillik yollarında inamla irəliləyən Azərbaycanda sahibkarlığın inkişafına müsbət təsirini göstərəcəkdir.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

### Sığorta agenti kimi fəaliyyət göstərən fiziki şəxs sadələşdirilmiş vergi ödəyicisi ola bilərmi?

Azərbaycan Respublikasının «Sığorta fəaliyyəti haqqında» 2007-ci il 25 dekabr tarixli Qanununun 5.2-ci maddəsinə əsasən, sığortaçılar, təkrarsığortaçılar, sığorta vasitəçiləri, aktuarilər, müstəqil auditorlar, müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxslər sığorta bazarının peşəkar iştirakçılarıdır. Qanunun 82-ci maddəsində göstərilir ki, bu qanunun məqsədləri üçün sığorta agentləri və sığorta brokerləri sığorta vasitəçiləri hesab edilir.

Vergi Məcəlləsinin (VM) 13.2.14.7-ci maddəsində sığorta və təkrarsığorta əməliyyatları, habelə bu əməliyyatlarla bağlı sığorta agenti və sığorta brokeri xidmətləri maliyyə xidmətlərinə aid edilmişdir. VM-in 101.3-cü maddəsində qeyd edilmişdir ki, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən 20 faiz dərəcəsi ilə vergi tutulur. Maliyyə xidmətlərinin göstərilməsi isə ƏDV-dən azaddır (VM, maddə164.1.2). VM-in 218.5.2-ci maddəsində qeyd edilmişdir ki, kredit və sığorta təşkilatlarının, investisiya fondlarının, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur.

Bunlarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli fərmanı ilə lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı təsdiq edilmiş və sığorta agenti fəaliyyəti lisenziya tələb olunan fəaliyyət növlərinə aid edilmişdir.

VM-in qeyd olunan maddələrinin müqayisəli təhlilindən göründüyü kimi, qanunvericilik sistemli şəkildə maliyyə xidmətlərinə vahid mövqedən yanaşaraq bir tərəfdən həmin xidmətləri ƏDV-dən azad etmiş, digər tərəfdən isə həmin xidmətləri göstərən qiymətli kağızlar və sığorta bazarının peşəkar iştirakçılarına sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ verməmişdir.

*Qeyd olunanlara əsasən:*

Sığortaçılar, təkrarsığortaçılar və sığorta vasitəçiləri (sığorta agentləri və sığorta brokerləri) sığorta bazarının peşəkar iştirakçılarıdır və onların fəaliyyəti lisenziya tələb olunan fəaliyyət növlərinə aiddir. VM-in 218.5-ci maddəsinə əsasən, sığorta təşkilatlarının sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ olmadığı üçün bu fəaliyyətlə məşğul olan fiziki şəxslər əldə etdikləri vergiyə cəlb olunan gəlirlərindən 20 faiz dərəcə ilə gəlir vergisi hesablayıb dövlət büdcəsinə ödəməlidirlər.


## ELAN

Asan İmza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin iyul ayında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin iyul ayında bitdiyindən, yeni Asan İmza sertifikatı almaq üçün «ASAN xidmət» və Vergi ödəyicilərinə xidmət mərkəzlərinə (http://www.taxes.gov.az/xidmetmerkezleri) müraciət etmək lazımdır.

Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet səhifəsinin «Sual-cavab» bölməsinə (www.taxes.gov.az/www.taxes/faq/sual.html), asxm.gov.az internet ünvanına və ya info@asxm.gov.az elektron poçtuna müraciət etməklə məsələ ilə bağlı əlavə məlumat almaq olar.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi


# İstehsalatda baş verən bədbəxt hadisələr narahatlıq doğurur

### Müşahidələr göstərir ki, işəgötürənlər və işçilər əmək təhlükəsizliyi qaydalarına ciddi riayət etmirlər

Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, hər bir işəgötürən müəssisənin istehsal etdiyi məhsuldan, gördüyü işdən, göstərdiyi xidmətdən asılı olmayaraq, işçilərinə iş yerlərində sağlam və təhlükəsiz əmək şəraiti yaratmalıdır. İşçilərin əməyin mühafizəsi normalarına, qaydalarına və standartlarına əməl etmələrinə daim diqqət yetirilməlidir. Sağlam və təhlükəsiz əmək şəraiti yaratmaq işəgötürənlərin vəzifəsi olsa da, əmək müqaviləsi ilə işləyən hər bir işçinin də əməyin mühafizəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş öhdəlikləri vardır. Buraya əməyin mühafizəsi üzrə müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulmuş əməyin təhlükəsizliyi, gigiyenası və yanğına qarşı mühafizə tədbirlərini öyrənmək, əmək prosesində daim həmin qaydalara əməl etmək daxildir. Lakin təəssüflər olsun ki, bu qayda və qanunlar həm işəgötürənlər, həm də işçilər tərəfindən tez-tez pozulur və nəticədə bədbəxt hadisələrin sayı artır. Statistikada bunu təsdiq edir: əgər 2015-ci ildə 20 belə hadisə qeydə alınmışdırsa, bu il hələ başa çatmasa da, 57 nəfər istehsalatda baş verən bədbəxt hadisənin qurbanı olmuşdur. Bədbəxt hadisələr daha çox tikinti, mədənçıxarma, emal sənayesi, enerji, nəqliyyat sektorunda və s. qeydə alınır.



Bəs istehsalat qəzalarının artmasının səbəbi nədir? Mütəxəssislər bildirir ki, bəzi müəssisələrdə təhlükəsizlik texnikası qaydalarına riayət olunmur, işçilər düzgün təlimatlandırılmır. Sahibkarlar əlavə vəsait xərcləməmək üçün işçini təhlükəsizlik vasitələri ilə təmin etmirlər. Hadisə baş verdikdə isə onu gizlətməyə çalışırlar. «İcbari sığorta haqqında» Qanuna uyğun olaraq, sığortalanmış işçilərə dəymiş zərərin əvəzi sığorta şirkətləri tərəfindən ödənilir. Bədbəxt hadisə nəticəsində xəsarət almış işçilərə dəymiş zərərin əvəzi onun əmək qabiliyyətini itirilməsi faizinə görə ödənilməlidir. Qanuna görə, işçi əlilllik dərəcəsi aldığı təqdirdə ona ödəniş edilir. O, bir neçə aya sağalacağı halda isə heç bir kompensasiyadan söhbət gedə bilməz. Yalnız xəstəxanada olduğu müddətdə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müəssisə tərəfindən ona məvacib ödənilir. Qanuna əsasən, sağlamlığa dəyən ziyanla bağlı iddia müddəti yoxdur, iş qabiliyyətinin itirilməsinə görə kompensasiya almayan şəxs, hadisənin üzərindən neçə il ötməsindən asılı olamayaraq, sahibkarı məhkəməyə verə bilər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin məlumatına görə, belə hadisələrə görə məsuliyyətə cəlb etmə və cərimələr, əsasən, ticarət, avtomobil təmiri, tikinti, yaşayışın təşkili və ictimai iaşə, nəqliyyat və rabitə, emal sənayesi və s. sektorlarda tətbiq olunur. Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov mövzuya münasibət bildirərək demişdir ki, «Əməyin təhlükəsizliyi və sağlamlaşdırılması üzrə Milli Strategiya» hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Layihədə əməyin təhlükəsizliyi və sağlamlaşdırılması üzrə əsas məqsədlərə çatmaq üçün təhlillər əsasında perspektiv tədbirlər əksini tapmışdır. Belə tədbirlərdən biri kimi, yaxın gələcəkdə Dövlət Əməyin Mühafizəsi Fondunun, Əməyin Mühafizəsi üzrə Milli İnformasiya Mərkəzinin, eləcə də əməyin mühafizəsi vasitələrini istehsal edən müəssisələrin yaradılması nəzərdə tutulur. Strategiya üzrə əməyin mühafizəsi sisteminin təkmilləşdirilməsi, işçilərin sağlamlığının qorunması məqsədilə onların icbari tibbi sığorta olunmalarına dövlət və ictimai nəzarətin gücləndirilməsi işləri də aparılacaq. S.Müslümov bildirmişdir ki, iş yerlərində əməyin mühafizəsi normalarına uyğunluğunun müasir üsullarla ekspertizası üçün xüsusi laboratoriyalar yaradılır. Artıq Bakıda Dövlət Əmək Müfəttişliyi Xidmətinin mərkəzi laboratoriyasının tikintisi nəzərdə tutulur. Digər bölgələrdə də belə laboratoriyalar yaradıla bilər. Burada quraşdırılan ən müasir avadanlıqlar istehsal sahələrində işçilərin sağlamlığına mənfi təsir göstərən zərərli fiziki-kimyəvi-bioloji amilləri öyrənməyə imkan verəcək.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevin sözlərinə görə, işçilər üçün təhlükəsiz iş şəraitinin yaradılması hər bir işəgötürən üçün, ilk növbədə, mənəvi borcdur. Əməyin mühafizəsi istənilən müəssisənin iqtisadi mənafeyi üçün vacibdir. Əmək hüquqlarının qorunması və əməyin mühafizəsinin möhkəmləndirilməsi istiqamətində qanunvericilikdə edilmiş dəyişikliklər əmək hüquqları ilə bağlı işçilərin məsuliyyətlərinin daha da artmasına yönəldilmişdir.

**Rəşad SADIQOV**

# Qlobal Forumda Azərbaycan üzrə hesabat müzakirə ediləcək

Norveç Krallığının paytaxtı Oslo şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumunun Qiymətləndirmə Qrupunun 23-cü iclası keçirilmişdir. Qiymətləndirmə prosesinin hazırda davam edən ikinci mərhələsi üzrə qiymətləndiricilər tərəfindən hazırlanmış hesabatın ilkin mətninin müzakirə edilməsi məqsədilə Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəisi Zaur Fətizadə, Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Ülvi Yusifov və Maliyyə institutlarında vergi monitorinqi idarəsinin rəis müavini Vüsal Şıxəliyev iclasda müşahidəçi qismində iştirak etmişlər.

Qeyd edək ki, Azərbaycan Qlobal Foruma 2013-cü ilin fevral ayında üzv olmuşdur. Foruma üzv olan ölkələr vergi məqsədləri üçün məlumat mübadiləsində beynəlxalq standartları tətbiq etmək və həmin standartların tətbiqi səviyyəsinin Forum tərəfindən qiymətləndirilməsinə icazə vermək öhdəliyi daşıyırlar. Bu məqsədlə təşkilat daxilində ölkələrin qiymətləndirmə proseslərinin gedişinə nəzarət edən və hesabat layihələrinin yekun müzakirəsini həyata keçirən qiymətləndirmə qrupu fəaliyyət göstərir. Bu ilin sentyabr ayında qiymətləndirmə qrupunun 24-cü iclasında Azərbaycan üzrə hesabatın müzakirəsi nəzərdə tutulmuşdur.

# «Elektron ipoteka» sistemi şəffaflığa və rahatlığa zəmin yaradacaq

### *Dövlət başçısının imzaladığı fərmana əsasən, «Azərbaycan İpoteka Fondu» ASC-nin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi məqsədilə yaradılan yeni sistem 2017-ci il yanvarın 1-dən fəaliyyətə başlayacaq*

Fərmanla Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə (RYTN) də bir sıra mühüm işlər həvalə olunub. Nazirlik «Elektron ipoteka» sisteminin «Elektron hökumət» portalına inteqrasiyasını və müvafiq dövlət qurumlarının informasiya sistemlərindən məlumatların bu sistemə ötürülməsi imkanını təmin etməlidir. «Elektron hökumət» portalının operatoru Məlumat Hesablama Mərkəzindən (MHM) aldığımız məlumata görə, «Elektron ipoteka» sisteminin portala inteqrasiyasını və müvafiq dövlət qurumlarının informasiya sistemlərindən məlumatların bu sistemə ötürülməsi imkanını, həmçinin ipoteka kreditinin alınması üçün tələb edilən, aidiyyəti dövlət qurumlarının informasiya sistemlərində mövcud olan məlumatların müvəkkil banklar tərəfindən «Elektron ipoteka» sistemi vasitəsilə alınmasını təmin etmək Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin vəzifələrinə aiddir. Fərmanda, həmçinin, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə, Vergilər Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Əmlak Məsələləri Dövlət Komitəsinə və



Maliyyə Bazarlarına Nəzarət Palatasına «Elektron ipoteka» sisteminin fəaliyyətinin təşkilində «Azərbaycan İpoteka Fondu» ASC-yə kömək etmək tövsiyə olunur.

«Elektron ipoteka» sistemi ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin alınması üçün tələb olunan sənədlərin siyahısının və şərtlər barədə məlumatın olmasını, ipoteka krediti almaq istəyən şəxsin imkanının ipoteka kalkulyatoru proqramı vasitəsilə ilkin olaraq müəyyənləşdirilməsini, ipoteka kreditinin alınması üçün ayrıca olaraq hər bir müvəkkil bank üzrə ipoteka krediti almaq istəyən şəxsin ödəməli olduğu xidmət haqqının, habelə hər bir müvəkkil qiymətləndiricinin xidmətləri üzrə xidmət haqqının məbləğləri barədə məlumatın olmasını təmin edəcək.

«TuranBank»ın İnformasiya Texnologiyaları Departamentinin rəhbəri Bəxtiyar Məmmədovun sözlərinə görə, «Elektron ipoteka» sistemi əhalinin ipoteka kreditlərinə çıxış imkanlarının genişləndirilməsini, ümumilikdə bu sahədə əməliyyatların avtomatlaşdırılmasını nəzərdə tutur. Yeni sistemin tətbiqi vətəndaşların müraciətlərinə baxılmasında növbəliliyin təmin edilməsinə, biznes proseslərində şəffaflığının artırılmasına, kreditlərin rəsmiləşdirilməsi müddətlərinin və əməliyyat xərclərinin əhəmiyyətli dərəcədə azalmasına, ümumilikdə isə ipoteka kreditləşməsinin sadələşdirilməsinə xidmət edir. «Elektron hökumət» portalında «Elektron ipoteka» sisteminin yaradılmasının müsbət cəhəti ondan ibarətdir ki, vətəndaşlar çox asan şəkildə ipoteka krediti almaq üçün müraciət edə biləcəklər: burada ASAN İmza, elektron imza və digər eyniləşdirmə vasitələrindən istifadə mümkün olacaqdır. Sistemin tam hazırlanması və «Elektron hökumət» portalında tətbiqindən sonra insanlar internet üzərindən ipoteka krediti üçün qanunvericiliyə uyğun şəkildə müraciət edə biləcək, müxtəlif sənədləri elektron şəkildə imzalamaqla təqdim edə biləcəklər.

Yeni sistemin tətbiqi «Elektron hökumət» layihəsinin əhatə dairəsinin daha da genişlənməsinə, informasiya resurslarının mərkəzləşdirilmiş sistemlə inteqrasiyasına səbəb olacaqdır ki, bu da gələcəkdə informasiya resursları arasında mübadiləni xeyli asanlaşdıracaqdır.

**FƏXRİYYƏ**

# Vətəndaşların müraciət imkanları genişləndirilir

Vergilər Nazirliyi vətəndaş müraciətlərinin vergi orqanına daha operativ çatdırılması məqsədilə elektron xidmətlərə üstünlük verir. Nazirlik tərəfindən istifadəyə verilmiş 60 elektron xidmətdən 5-i vətəndaşların müraciətlərini əhatə edir. Bu xidmətlərdən 3-ü bilavasitə vergi orqanı əməkdaşlarının etik davranış və hərəkələri ilə bağlıdır.

Artıq bütün fiziki və hüquqi şəxslər vergidən yayınma halları və vergi orqanının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi) barədə Çağrı Mərkəzinə (195) zəng etməklə öz müraciətlərini müvafiq ünvana çatdıra bilirlər. Xidmət real vaxt rejimində həyata keçirildiyi üçün daxil olmuş müraciətlər dərhal qəbul olunur. Vətəndaşın müraciəti ilə əlaqədar «Müraciət vərəqəsi» tərtib edilir ki, bu zaman müraciət edən şəxs adını, atasının adını, soyadını, vergi ödəyicisi olduğu təqdirdə VÖEN-ni, ünvanını və telefon nömrəsini deməlidir. Bu məlumatlar verilmədikdə, habelə şikayətdə qaldırılan məsələlərin həlli dövlət vergi orqanlarının səlahiyyətlərinə aid olmadıqda Çağrı Mərkəzinin əməkdaşı qüvvədə olan qanunvericiliyə istinad edərək şikayətə baxılmasının mümkün olmadığını bildirir.




«Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi» elektron xidməti vasitəsilə fiziki və hüquqi şəxslər Vergilər Nazirliyinin daxili nəzarət strukturuna onlayn müraciət edə bilərlər. Bu elektron xidmətin təşkili vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsinə zəmin yaradır. Elektron xidmət Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (taxes.gov.az) «E-xidmətlər» bölməsində və «Elektron hökumət» portalında (e-gov.az) təqdim olunur və araşdırıldıqdan sonra nəticələrə dair müraciət müəllifinə cavab məktubu göndərilir.

Xidmətdən istifadə etmək istəyən fiziki və hüquqi şəxslər yuxarıda qeyd olunan e-səhifədə adı çəkilən elektron xidməti seçir. Açılan pəncərədə adını, soyadını, atasının adını, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsini və doğum tarixini qeyd edərək «Davam et» düyməsini sıxır. Bundan sonra açılan yeni pəncərədə istifadəçi tərəfindən forma üzrə müəyyən edilmiş müvafiq qrafalar doldurularaq «Göndər» düyməsi sıxılır. Təqdim olunmuş forma istifadəçi tərəfindən doldurulub onlayn rejimdə göndərildikdən sonra müraciət dərhal Vergilər Nazirliyinin Aparatına daxil olur. Araşdırmanın nəticəsinə dair hazırlanmış cavab məktubu müraciət müəllifinin qeyd etdiyi e-mail ünvanına göndərilir.

«Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi» elektron xidməti də şəffaflığın təmin edilməsinə zəmin yaradır. İstənilən fiziki və hüquqi şəxs nazirliyin internet səhifəsində «E-xidmətlər» bölməsinə və «Elektron hökumət» (e-gov.az) portalına daxil olaraq xidmətdən istifadə edə bilər. İstifadə qaydaları isə yuxarıda qeyd etdiyimiz e-xidmətdə olduğu kimidir.

Hər üç xidmət interaktivdir və ödənişsiz göstərilir. İstifadəçi elektron xidmətlərlə bağlı narazılığına səbəb olan istənilən məsələ barədə inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

**AYTƏN**

# Səmərəli vergi siyasəti qeyri-neft sənayesinin inkişafına kömək edir

Azərbaycanın ixrac etdiyi qeyri-neft sektoru məhsullarının çeşidində sənaye məhsulları mühüm yer tutur. Bu barədə iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova mətbuata açıqlamasında bildirib ki, son illərdə regionlarda istifadəyə verilən müəssisələrin istehsal gücünü artırması və yeni rəqabətqabiliyyətli məhsulların buraxılışı sənaye sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artmasına səbəb olub.

Qeyri-neft-qaz sənayesinin ümumi sənaye məhsulunda payı daha çox artıb. Son 4 ildə bu sahədə 30%-dən çox artım qeydə alınıb. Əsas inkişaf etmiş sahələr kimi emal, kimya, metallurgiya, yüngül və yeyinti sənayesi, tikinti materialları bölmələri daha çox diqqəti cəlb edir.

Nazir müavini qeyd edib ki, qeyri-neft-qaz sənayesində istehlak olunan bir sıra mallar daxili istehsal hesabına təmin olunacaq ki, bu da Azərbaycana valyuta qənaəti imkanı yaradacaq. Xüsusilə də qida sənayesinin inkişafı bu sahənin idxaldan asılılığının əsaslı şəkildə azaldılmasına imkan yaradacaq.

Qeyri-neft-qaz sektorunun inkişafına müsbət təsir edən əsas amil kimi səmərəli vergi siyasətinin həyata keçirildiyini qeyd edən S.Həsənova bildirib ki, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiyaların təşviqi baxımından vacib sahələrin inkişafına əlverişli şərait yaradılması üçün çevik vergi siyasətinin tətbiqi mühüm əhəmiyyət daşıyır. Bu cür siyasət qeyri-neft sektorunda istehsalın canlanmasına və yeni iş yerlərinin yaranmasına təkan verir.

Qeyri-neft sənayesində investisiya fəallığı da mühüm rol oynayır. 2016-cı ildə sənaye sektoruna xarici investorları cəlb etmək məqsədilə müxtəlif stimullaşdırıcı addımlar atılıb, vergi-gömrük, investisiya və digər güzəştlərin tətbiq olunması sayəsində xarici investorların, beynəlxalq maliyyə təşkilatlarının bu sahəyə marağı artıb. Dünya Bankı və digər beynəlxalq institutlar sənaye layihələrinə investisiya qoyuluşu ilə bağlı Azərbaycan hökuməti ilə bir sıra sazişlər imzalayıb. Həmin sazişlər çərçivəsində sənaye müəssisələrinin beynəlxalq standartlara uyğun tam reabilitasiyası, Azərbaycanda bərk məişət tullantılarının idarə edilməsi üzrə milli strategiya sənədinin qısa, orta və uzunmüddətli tədbirlər planının hazırlanması, bu sahədə qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması, regional tullantı poliqonlarının və ötürücü məntəqələrin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması nəzərdə tutulur. Hökumətin proqnozlarına görə, bu il iqtisadiyyatın qeyri-neft bölməsinə əhəmiyyətli dərəcədə sərmayə yatırılacaq. Qeyd edək ki, 2015-ci ildə ölkə iqtisadiyyatına 16 milyard manat investisiya qoyulub ki, bunun da 9 milyarda yaxını qeyri-neft sektorunun payına düşür. Qeyri-neft sektoruna yönəldilən sərmayələrin 60%-dən çoxu isə birbaşa sənaye ilə bağlıdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi»ndə əsas yer tutan sektorlardan biri qeyri-neft sənayesidir. Kimya, ağır sənaye və maşınqayırma sahələrinin, həmçinin kiçik və orta biznesin inkişafı kontekstində sənayenin əsas sektorlarının inkişafına yönəldilən layihələrin həyata keçirilməsi nəzərdə tutulur: «Azərbaycanda sənayenin strukturunda mədənçıxarmanın payının azalması fonunda emal sənayesinin xüsusi çəkisi artmaqdadır. Əgər sənaye yüksəlişinin birinci mərhələsi karbohidrogen resurslarına əsaslanırdısa, indiki mərhələdə inkişaf iqtisadi səmərəliliyin üzərində qurulmalıdır. Azərbaycan yeni sənayeləşmə dövrünə qədəm qoyub. Bu mərhələnin əsas xüsusiyyətləri sənayenin regionlarda inkişafı, innovativlik və ətraf mühitə təsirlərin azaldılması, iqtisadiyyatın rəqabət qabiliyyətinin və sənaye ixracının artırılması və yeni iş yerlərinin açılmasıdır. «Milli iqtisadiyyatın strateji yol xəritəsi» ağır sənayenin başlıca istiqamətlərini müəyyənləşdirəcək».

İqtisadiyyat Nazirliyindən bildirilmişdir ki, yaxın on ildə respublikamızda 500-dən artıq yeni sənaye müəssisəsinin yaradılması nəzərdə tululur. Bu məqsədlə bölgələrdə sənaye məhəllələrinin, biznes inkubatorlarının yaradılması və digər layihələr həyata keçiriləcək. «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»nda mühüm və əhatəli məsələlər öz əksini tapıb. Sənədin əsas prioritetləri sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, regionların sənaye potensialının gücləndirilməsi, sənaye və texnologiyalar parklarının və sənaye məhəllələrinin yaradılması, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması kimi istiqamətləri əhatə edir. Sənayenin inkişafı üzrə əsas ssenarilər kimya, texnologiya, mis, qızıl, dəmir və filiz kombinatları, alüminium, polad, maşınqayırma, yeyinti və yüngül sənaye obyektlərinin yaradılmasını əhatə edir. Dövlət öz maliyyə dəstəyini gücləndirməklə yanaşı, xarici investorların cəlb olunması üçün bir sıra stimullaşdırıcı şərtlər tətbiq etməyi də nəzərdə tutur.

**Elbrus CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

İyulun 15-16-da İsveçrənin maliyyə naziri Ulrix Mauer Azərbaycana səfər edəcək.

Azərbaycan və Rusiya mallarının sərhəddən keçirilməsinin sürətləndirilməsi ilə bağlı tərəflər arasında müzakirələr aparılıb.

Trans-Anadolu qaz boru kəmərindən (TANAP) faydalanaraq həm Türkiyədə, həm də digər qonşu ölkələrdə kommunikasiya şəbəkələrinə olan tələbatı qarşılaya biləcək fiber-optik layihəsinin həyata keçirilməsi nəzərdə tutulur.

Mehmanxana və mehmanxana tipli obyektlərdə göstərilən xidmətlərin müvafiq tələblərə və standartlara uyğunluğunu müəyyən etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bir sıra mehmanxanaların təsnifatı aparılıb.

Bu ilin dekabr ayının 15-dən 17-dək EIANEXPO marketinq agentliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində AFU EXPO-2016 beynəlxalq bitkiçilik, landşaft və şəhərsalma sərgisi keçiriləcək.

# Mənzil və qeyri-yaşayış sahələrinin satışı ilə bağlı yeni qayda

Nazirlər Kabineti «Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat»da dəyişikliklər edib. APA-nın məlumatına görə, dəyişikliyə əsasən, bundan sonra kommersiya hüquqi şəxsi ilə bağlı notariat hərəkətləri aparılarkən notarius kommersiya hüquqi şəxslərinin dövlət reyestrinə daxil olmuş, o cümlədən təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatları informasiya sistemi vasitəsilə elektron sorğu əsasında gün ərzində əldə edəcək və bu barədə çap olunmuş arayışı müvafiq notariat hərəkəti üzrə notariusda saxlanılan işin nüsxəsinə əlavə edəcək.

Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilənin (alqı-satqı, bağışlama, dəyişdirmə, renta və s.) notariat qaydasında təsdiqi zamanı notarius Vergi Məcəlləsinə uyğun olaraq, sadələşdirilmiş vergini hesablayaraq 1 bank günü ərzində dövlət büdcəsinə ödəyir və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq Vergilər Nazirliyinin müəyyənləşdirdiyi forma üzrə bəyannaməni vergi orqanına təqdim etməyə borcludur. Fiziki şəxsin özgəninkiləşdirilən yaşayış yeri üzrə qeydiyyatda olması müddəti «Elektron notariat» və «Giriş-çıxış və qeydiyyat» avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə əldə olunmuş məlumat əsasında müəyyən olunacaq. Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsinə görə hesablanmış sadələşdirilmiş verginin depozit hesabından dövlət büdcəsinə mədaxil olunması üçün notarius təqdim edən şəxsə ödəniş tapşırığı verəcək. Satıcı həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi barədə bank qəbzini notariusa təqdim etdikdən sonra təsdiq olunmuş müqavilə tərəflərə veriləcək. Həmin qəbzin əsli notariat işində saxlanılacaq, surəti notarius tərəfindən satıcıya təqdim olunacaq. Müqavilə üzrə pul məbləği Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş aşağı həddən az olduğu hallarda, habelə bağışlama, dəyişdirmə, renta (daşınmaz əmlak bağışlandıqda) müqavilələri üzrə yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı müqavilələrin rəsmiləşdirilməsi zamanı hesablanmış sadələşdirilmiş verginin depozit hesabına mədaxil edilməsi üçün notarius təqdim edən şəxsə banka ünvanlanmış məktub verəcək və hesablanmış sadələşdirilmiş vergi notariusun təqdim edən şəxsə verdiyi ödəniş tapşırığı əsasında depozit hesabı vasitəsilə dövlət büdcəsinə ödəniləcək. Müqavilənin rəsmiləşdirilməsi vaxtı bankın qeyri-iş gününə təsadüf etdikdə, notarius hesablanmış sadələşdirilmiş vergini növbəti bank günündən gec olmayaraq, dövlət büdcəsinə ödənilməsi üçün nağd şəkildə tutmaqla, sadələşdirilmiş verginin tutulmasını təsdiq edən sənədi (qəbzi) təqdim edən şəxsə, müqaviləni isə hər iki tərəfə verəcək. Hər ay başa çatdıqda, növbəti ayın birinci iş günü təsdiq edilmiş müqavilələr üzrə dövlət büdcəsinə ödənilmiş vergi barədə bank hesabından çıxarışla üzləşmə aparılacaq və rübdən sonrakı ayın 5-dək Ədliyyə Nazirliyinə məlumat veriləcək.

# Kommersiya (vergi) sirri

Vergi Məcəlləsində nəzərdə tulduğu kimi, vergi sirrinin qorunmasında hər bir vergi işçisinin üzərinə məsuliyyət düşür. Qanunvericilikdə qeyd olunmuşdur ki, vergi orqanları və onların vəzifəli şəxsləri (vergi orqanlarında işlədikləri dövrdə və ya işdən çıxdıqdan sonra) xidməti vəzifələrini yerinə yetirərkən vergi ödəyiciləri haqqında əldə etdikləri və ya onlara etibar edilən hər hansı məlumatın məxfiliyini qorumağa borcludurlar. Vergi orqanı və onun vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisi barədə əldə olunan istənilən məlumat kommersiya (vergi) sirri və şəxsi həyata dair məlumat hesab olunur. Bu zaman aşağıdakı məlumatlar istisna təşkil edir:

- vergi ödəyicisinin razılığı ilə aşkar olunan;
- vergi ödəyicisinin eyniləşdirmə nömrəsi haqqında;
- müəssisənin nizamnamə fondu (nizamnamə kapitalı) haqqında;
- vergi qanunvericiliyinin pozulması və bu pozulmalara görə məsuliyyət tədbirləri haqqında;
- vergi ödənişləri üzrə borclar;
- hüquqi şəxslərin dövlət reyestrindəki məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla).

Kommersiya (vergi) sirrinin açılmasına əsas etibarilə, ancaq bununla məhdudlaşmayan vergi yoxlaması zamanı vəzifələrini yerinə yetirərkən vergi orqanının vəzifəli şəxsinə, cəlb edilmiş mütəxəssisə və ya ekspertə bəlli olmuş vergi ödəyicisinin kommersiya (vergi) sirrinin istifadə edilməsi və ya başqa şəxsə verilməsi aiddir. Vergi orqanına daxil olmuş və kommersiya (vergi) sirri təşkil edən məlumatların qorunmasının və əldə edilməsinin xüsusi rejimi vardır. Kommersiya (vergi) sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan siyahı üzrə vəzifəli şəxslər əldə edə bilər. Kommersiya (vergi) sirrini təşkil edən məlumatların itirilməsi və ya belə məlumatların açılması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Vergi Məcəlləsinin 30.6-cı maddəsinə görə, vergi orqanları və onların vəzifəli şəxsləri vergi ödəyiciləri haqqında məlumatı ancaq aşağıdakı hallarda digər orqanlara qanunvericiliklə müəyyən edilmiş qaydada verə bilərlər:

- vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergi orqanlarının vəzifələrinin həyata keçirilməsi məqsədi ilə;
- vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə əlaqədar onların qarşısının alınması və istintaq aparılması üçün müvafiq icra hakimiyyəti orqanına;
- inzibati xətalar və ya vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə bağlı işlərə baxılması ilə əlaqədar müvafiq məhkəmələrə;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, digər dövlətlərin müvafiq dövlət hakimiyyəti orqanlarına;
- sosial müdafiə haqqında qanunların yerinə yetirilməsi üçün zəruri olan hədlərdə dövlət sosial müdafiə və tibbi sığorta fondlarına;
- gömrük qanunvericiliyinin tətbiq edilməsi məqsədləri üçün gömrük orqanlarına.
- cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə maliyyə monitorinqi orqanına.

Dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri kommersiya (vergi) sirrini təşkil edən məlumatları əks etdirən sənədləri həmin sənədləri onlara təqdim etmiş vergi orqanlarına qaytarmalıdırlar. Vergi ödəyicisinə aid məlumat digər şəxsə vergi ödəyicisinin yazılı icazəsi ilə verilə bilər.

# Azərbaycan iqtisadiyyatının inkişafında turizmin önəmi artır

## Bununla bağlı mühüm sənədlər hazırlanır, qanunvericilik bazası təkmilləşdirilir

Yaxın zamanlarda parlamentdə «Turizm haqqında» yeni qanun layihəsi müzakirəyə çıxarılacaq. Layihədə müasir turizm sənayesinin daha effektli idarə olunması üçün mühüm institusional, tənzimləyici yeniliklər və qabaqcıl təcrübələr öz əksini tapıb. Sənəddə institusional yeniliklər kimi, turizm və rekreasiya zonalarının, turizm bürolarının, sosial turizm komissiyalarının, dövlət mülkiyyətində olmayan turizm informasiya mərkəzlərinin və turizm informasiya-biznes mərkəzlərinin yaradılması, elmi tədqiqatların aparılması üçün müvafiq qurumların təsis edilməsi və s. müddəalar yer alıb. Həmçinin, tənzimləyici yeniliklər kimi, turizm sahəsində qanunvericilik maddələrinin əhatəli genişləndirilməsi, korporativ idarəetmə standartlarının hazırlanması və onların turizm sahəsində dövlət tənzimləməsinin əsas prinsiplərdən biri kimi müəyyən edilməsi, dövlət turizm reyestrinin yaradılması, bu sahədə fəaliyyət və xidmət növlərinin yeni təsnifatının nəzərdə tutulması, turizm və yerləşdirmə fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, turizm sahəsində bağlanan əqdlərin təsnifatının verilməsi, təhlükəsizlik konsepsiyasının hazırlanması və s. müddəalar əks olunub. Mütəxəssislərin fikrincə, yeni qanunun tətbiqi Azərbaycanın turizm potensialının daha da inkişaf etdirilməsi, bu sahədə biznes proseslərinin səmərəli idarə olunması, dövlət tərəfindən turizm fəaliyyətinin tənzimlənməsi və turizm sənayesinə verilən dəstəyin artırılmasında geniş imkanlar yaradacaq.

Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycanda 2016-2025-ci illər üçün Turizmin İnkişafı Strategiyası hazırlanır. Sözügedən sənəd Nazirlər Kabinetinə təqdim edilib və yaxın vaxtlarda təsdiq olunacağı gözlənilr. Mədəniyyət və Turizm Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Şıxəmmədovun sözlərinə görə, Prezident İlham Əliyevin turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıqlar qarşıya qoyulan vacib məsələlərdəndir: «Hazırda Azərbaycanda bir neçə turizm növü inkişaf edir. Qış turizmi, eləcə də son illər sağlamlıq və mətbəx turizmi də inkişaf dövrünü yaşayır, bununla bağlı müxtəlif infrastruktur layihələri həyata keçirilir. Bütün bu məsələlər Turizmin İnkişaf Strategiyasında öz əksini tapmışdır». Şöbə müdiri qeyd edib ki, Azərbaycana ənənəvi olaraq Rusiya, İran, Türkiyədən daha çox turist gəlir, lakin sevindirici haldır ki, artıq respublikamıza digər ölkələrdən gələn turistlərin də sayında kifayət qədər artım müşahidə olunur: «Təkcə 2016-cı ilin aprel ayında yalnız Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) gələn turistlərin sayı ötən ilin analoji dövrü ilə müqayisədə 27 dəfə çoxalıb. Bu rəqəm ümumilikdə ötən il ərzində ölkəmizə gələn turistlərin sayından da çoxdur. Bunun əsas səbəbi isə BƏƏ-nin Dubay şəhərində nazirliyin turizm nümayəndəliyinin üç ildən çox müddətdə fəaliyyət göstərməsidir. Eyni zamanda, Almaniyanın Frankfurt şəhərində də belə bir nümayəndəliyimiz var. Bu il isə Moskva və İstanbulda daha iki nümayəndəlik açılıb. Gələcəkdə onların sayının daha da artırılması nəzərdə tutulur».



Xatırladaq ki, Azərbaycana turizm axınının səviyyəsinin daha da artırılması məqsədilə xarici ölkə vətəndaşlarına vizaların verilməsi işinin sadələşdirilməsi böyük perspektivlər vəd edir. Bu baxımdan, Prezident İlham Əliyevin iyunun 1-də imzaladığı «Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və «ASAN viza» sisteminin yaradılması» haqqında fərmanı mühüm əhəmiyyətə malikdir. Fərmana əsasən, bütün vizaların alınması vahid portal vasitəsilə həyata keçiriləcək, yəni əcnəbi turistlər ölkəmizə səfər etmək istədikdə vahid «ASAN Viza» portalına müraciət edəcəklər, bütün zəruri informasiyalarını, sənədlərini təqdim etməklə vizanı da həmin portal vasitəsilə elektron formada ala biləcəklər. Bununlada heç bir dövlət qurumuna və ya özəl təşkilata müraciət etmədən onlayn qaydada viza əldə etmək mümkün olacaq. Vizaların verilməsi prosesi üç gün ərzində həyata keçiriləcək. Yaxın vaxtlarda Xarici İşlər Nazirliyi tərəfindən elektron viza ala biləcək ölkələrin siyahısı müəyyənləşdirildikdən sonra turistlər bu xidmətdən yararlana biləcəklər.

**Azərbaycana turizm axınının səviyyəsinin daha da artırılması məqsədilə xarici ölkə vətəndaşlarına vizaların verilməsi işinin sadələşdirilməsi böyük perspektivlər vəd edir**

**Rəşad SADIQOV**

# Fermerler üçün ayrıca bank yaradılacaq

Kənd təsərrüfatı mülkiyyətçilərinə maliyyə dəstəyini artırmaq və bu sahədə çalışan insanların kredit əldə etmək imkanlarını daha da asanlaşdırmaq üçün mərkəzləşdirilmiş ixtisaslı bank qurumu yaratmaq nəzərdə tutulur.

«Kənd təsərrüfatı kooperasiyası haqqında» Qanunda dövlətin aqrar sahəyə dəstəyini artırmaq üçün kredit zəmanəti fondunun yaradılması öz əksini tapıb. Məqsəd yeni kooperativlərə güzəştli şərtlərlə kreditləşmənin təmin olunmasıdır.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirib ki, kənd təsərrüfatına daha çox universal banklar xidmət göstərməlidir. Hazırda hökümət tərəfindən aqrar sahəyə maliyyə dəstəyi ilə bağlı dövlət və özəl olmaqla, müxtəlif formada maliyyə dəstəyi göstərilir. Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Nazirliyi yanında Kredit Agentliyi mülkiyyətçilərə güzəştli kreditlər verir. Bunlarla yanaşı, regionlarda mikromaliyyələşdirmə təşkilatları da fəaliyyət göstərir: «Bu gün Azərbaycan iqtisadiyyatı qarşısında duran böyük hədəflərə çatmaqda kənd təsərrüfatı əhəmiyyətli rol oynayır. Amma ölkənin müasir inkişafı və kənd təsərrüfatının potensialı maliyyələşmənin artırılmasını tələb edir. Ölkə əhalisinin 40 faizi kənd təsərrüfatı sahəsində çalışır və onların sayı 4,5 milyon nəfər olan iqtisadi fəal əhalinin 80 faizini təşkil edir. Ona görə də kənd təsərrüfatı mülkiyyətçiləri üçün ayrıca güzəştli şərtlərlə kredit siyasətini həyata keçirən banka ehtitac var. Kommersiya bankları mülkiyyətçilərə  kredit vermək istəmir. Kəndlinin torpaqdan başqa elə bir qiymətli əmlakı yoxdur, banklar isə onu girov kimi qəbul etmək istəmir. Buna görə də kommersiya xarakterli maliyyələşdirmə ilə bağlı uyğun mexanizm tapılmalıdır. Bu məqsədlə Zəmanət Fondunun yaradılması nəzərdə tutlur. Fond torpağı girov kimi qəbul edəcək, fermer krediti qaytara bilmədikdə torpağa sahib olacaq. Bank məsələsinə gəlincə, bu, müsbət addım olardı. Hazırda kənd təsərrüfatı mülkiyyətçiləri üçün «Aqrarkredit» qeyri-bank təkşilatı fəaliyyət göstərir. Onun bazasında ixtisaslaşmış bank yaratmaq mümkündür».

Mərkəzi Bankın sədr müavini Aftandil Babayevin bildirdiyinə görə, ixtisaslaşdırılmış aqrar bankın yaradılması gündəmdədir və bunun üçün iqtisadi mexanizmlər mövcuddur. Əvvəlcə bankın kommersiya xarakterli, yaxud dövlət bankı olması məsələsi müəyyən olunmalıdır, sonra isə bu maliyyə strukturunun yaradılması potensialına baxmaq mümkündür. Burada bir neçə variant təklif olunur. Təkliflərdən biri budur ki, «Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyəti bank olmayan kredit təşkilatının bazasında bank yaradılsın. Qeyd edək ki, bir neçə il əvvəl ölkəmizdə kənd təsərrüfatının maliyyələşməsi ilə məşğul olan Aqrar-Sənaye Bankı mövcud idi, sonradan həmin bank ləğv olundu və onun hüquqi varisi kimi lAqrarkredit» kredit təşkilatı yaradıldı. Bu qurum neçə ildir ki, aqrar sahəyə maliyyə dəstəyi göstərir, təşkilatın fəaliyyətini genişləndirib banka çevirmək mümkün hesab olunur. Bu məqsədlə Türkiyə, İspaniya və Hindistanın təcrübəsi öyrənilir.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru Jalə Hacıyeva bildirib ki, kənd təsərrüfatı üzrə Zəmanət Fondunun yaradılması ilə yanaşı, həmin sahədə sığorta mexanizminin tətbiqi də təmin edilməlidir. Kənd yerlərində evlər və torpaqlar, əkinçilik və heyvandarlıq kompleksləri də sığorta olunmalıdır. Bundan sonra Zəmanət Fondunun fermerə zəmanət məktubu verməsi üçün əsas yarana bilər. Sığorta ilə bağlı problemlər həll olunarsa və uğurlu işlək mexanizm qurularsa, getdikcə kənd təsərrüfatı ilə məşğul olanların da sayı artar və dövlət vəsaitinin səmərəli istifadəsi üçün əlverişli zəmin yaranar.

**ELBRUS**

## vergi taqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».

20 iyul - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir. Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Özbəkistanla Finlandiya arasında protokol qüvvəyə mindi



Özbəkistan Respublikası ilə Finlandiya Respublikası arasında ikiqat vergitutmaya yol verilməməsi və vergidən yayınmanın qarşısının alınması barədə sazişə (9 aprel 1998) düzəliş etmək barədə 2016-cı il martın 8-də Helsinki şəhərində imzalanmış protokol iyunun 3-də qüvvəyə minmişdir.

Protokolda vergiləri ödəməkdən yayınmağın qarşısının alınması və vergilərin tutulmasına əməli təsir göstərilməsi sahəsində informasiya mübadiləsinin səmərəli mexanizmlərinin genişləndirilməsinə yönəldilmiş yeni müddəalar yer alıb. Bu beynəlxalq sənəd ölkələr arasında vergilərlə bağlı qanunsuzluqlara qarşı mübarizədə ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə şərait yaradacaq və iki ölkənin vergi qanunvericiliyinə əməl olunmasını təmin edəcək.

# Ukrayna gözlənilən vergi əfvindən imtina edir

Dövlət Fiskal Xidmətinin rəhbəri Roman Nəsirov bu il vergi əfvinin elan edilməsinə qarşı çıxış etmişdir. O, Kiyevdə keçirilmiş İsveç-Ukrayna biznes forumunda demişdir: «Mən «vergi güzəşti» adlandırılan qərar qəbul edilərkən parlamentin iclasında olmuşam, bu qərar faktiki olaraq vergi əfvidir. Onun qəbul edilməsi zəruri idi, məsələyə son qoyulması lazım idi. İndi bunu etmək çox çətindir, çünki belə bir addımın atılması - hər il vergi əfvinin verilməsi səhv siqnal olardı».

Bununla yanaşı, xidmət rəhbəri biznes dairələri ilə vergi orqanları arasında mübahisələrin məhkəməyə qədər həll edilməsi ideyasının tərəfdarı olduğunu bildirmişdir.

Məlumat üçün onu da nəzərinizə çatdıraq ki, Ukraynanın vergi administrasiyasının rəhbəri Roman Nəsirov əslən azərbaycanlıdır.

# Qırğızıstanda ən yaxşı vergi ödəyiciləri elan edildi

Respublikanın vergi xidməti iyulun 1-də vergi xidməti işçiləri gününə həsr edilmiş təntənəli mərasimdə ölkənin ən yaxşı vergi ödəyicilərini elan edilmiş şirkətləri təltif etmişdir. İqtisadiyyatın inkişafına verdiyi böyük töhfələrə, büdcənin gəlir hissəsinin formalaşdırılmasında fəal iştirakına, 2015-ci ilin və bu ilin ilk beş ayının göstəriciləri üzrə vergi qanunvericiliyinə vicdanla əməl etdiyinə görə 10 şirkət Qırğızıstanın ən yaxşı şirkətləri kimi qiymətləndirilmişdir. Fərqlənmiş şirkətlərə sertifikatlar təqdim edilmişdir.



Vergi xidmətindən bildirilmişdir ki, «Ən yaxşı vergi ödəyicisi» mükafatının başlıca məqsədi iqtisadiyyatın müxtəlif sahələrində uğurla fəaliyyət göstərən müəssisə və şirkətləri stimullaşdırmaq, vicdanla, şəffaf və savadlı həyata keçirilən biznesin populyarlaşdırılması və istər hüquqi şəxslər, istər vətəndaşlar arasında vergi mədəniyyətinin formalaşdırılmasıdır.

# ABŞ: Fond opsiyonları vergidən yayınmağın vasitəsi kimi

Amerika Birləşmiş Ştatlarının STJ (Vətəndaşlar Vergi Ədaləti Uğrunda) təşkilatı maraqlı bir hesabat hazırlamışdır. Hesabatda «Fortuna» nın siyahısında təqdim edilmiş 500 şirkətin fəaliyyəti təhlil olunmuşdur. Bunlar fond opsiyonlarından istifadə edən şirkətlərdir. Hesabata əsasən, ABŞ-da fəaliyyət göstərən şirkət sahibləri fond opsiyonları sxemindən istifadə edərək külli miqdarda vəsaiti dövlət büdcəsindən yayındırmışlar. Açıqlanan rəqəmlər onu göstərir ki, informasiya texnologiyaları korporasiyaları vergi qaçaqçılığında bankirləri geridə qoya bilmişlər. Məlum olmuşdur ki, bütün şirkətlər opsiyonları yalnız bir məqsəd - vergidən yayınma naminə tətbiq edirlər. Son 5 ildə həmin metoddan istifadə sayəsində vergidən yayındırılan məbləğ 64,6 milyard dollara çatmışdır. «Qara siyahı»da olan şirkətlərin böyük əksəriyyətini isə qabaqcıl bu sahədə fəaliyyət göstərən korporasiyalar təşkil edir.

Qeyd edək ki, fond opsiyonları şirkətlərə müəyyən olunmuş sabit qiymətlərlə səhmlər almağa imkan verən hüquqdur. Bu hüquqdan işinin nəticəsi uğurlu olan rəhbərlər istifadə edirlər. Səhm bazarında opsiyonların qiyməti nə qədər yüksək olarsa, şirkət sahibləri bundan o qədər çox qazanc əldə edirlər. Son 5 ildə STJ şirkəti korporasiyaların hesabat göstəricilərini izləmişdir və bu göstəricilər əsasında şirkətlərin vergi yayındırmaq üçün istifadə etdikləri metod aşkarlanmışdır. Məlum olmuşdur ki, onun köməyi ilə şirkətlər orta hesabla 13 milyard dollar həcmində vergidən yayınmışlar. Burada orta məbləğ heç də həmişə dəqiq deyil. Çünki şirkətlərin əksəriyyəti öz maliyyə göstəriciləri ilə bağlı dəqiq məlumatları açıqlamırlar, göstəricilər əhəmiyyətli dərəcədə az verilir.

Müasir vergi qaçaqçılığında fond opsiyonları sığınacağının ən aktual məsələlərdən biri hesab etmək olar. Məhz onun sayəsində şirkətlər milyonlarla, hətta milyardlarla dollar vergi vəsaitini mənimsəyirlər. Keyfiyyətli işinə görə mükafat kimi rəhbərlərə qaytarılan fond opsiyonları sxemindən həm kiçik müəssisələr, həm də nəhəng korporasiyalar istifadə edə bilir. Qəribə də olsa, dövlət xəzinəsinin böyük vəsait itirməsinə baxmayaraq, bu sxem indiyə qədər də qanuni qüvvədədir. STJ-nin hesabatında göstərilmişdir ki, vergi sığınacaqlarından istifadə etməklə şirkətlər öz rəhbərlərinə böyük məbləğlərdə konpensasiyalar ödəyir, öz növbəsində, vergi bəyannamələrində olduqca aşağı rəqəmlər göstərirlər. 500 şirkətdən 300-dən artığı vergidən yayınmaqla hansı mənfəəti əldə etdiklərini də qeyd etmişlər.

***Hesabatla bağlı əsas məqamlar:***

- yalnız 2015-ci ildə şirkətlər tərəfindən ödənilməmiş vergi məbləğləri təxminən 15 milyard dollar olmuşdur;




- 315 korporasiya fond opsiyonları sxemindən istifadə edərək özlərinin dövlət xəzinəsinə vergi ödənişlərini azaltmışdır;
- xəzinəyə ödənilməmiş 64.6 milyard dollar məbləğin yarısı 25 şirkətin payına düşür;
- «Apple» ve «Facebook» bu siyahıda öndə gələnlərdəndir. Onların payına yayındırılmış vergi məbləğinin, müvafiq olaraq, 7 və 9 faizi düşür. Digər şirkətlər kimi, bu tanınmış korporasiyalar da fond opsiyonları sxemini tətbiq etmişlər. Pula çevirdikdə isə «Apple» ve «Facebook»un 5 il ərzində vergidən yayındırdıqları məbləğ 4,7 və 5,7 milyard dollar edir.

# Almaniyaya əmlak vergisini təkmilləşdirmək tövsiyə olunub

Beynəlxalq Valyuta Fondu (BVF) bəyan etmişdir ki, mənzil bazarında təklifi gücləndirmək üçün Almaniyanın əmlak vergisinin dərəcəsini aşağı salması arzu olunur. Fondun məruzəsində qeyd olunduğuna görə, 2007-ci ildən bəri Almaniya hökuməti əmlak vergisinin dərəcəsini azaltmamışdır, əksinə, 3,5%-dən 6,5%-ə qaldırılmışdır. Bundan əlavə, tikinti üçün ayrılan torpaq sahələri bəzən tikinti başa çatdırılana qədər bir neçə dəfə vergiyə cəlb olunur ki, bu da mənzil bazarındakı real mənzərəni təhrif edir.

BVF Almaniya hökumətinə ikiqat vergitutmaya yol verməmək və yeni tikintiləri maliyyə baxımından daha cəlbedici etmək məqsədilə tikinti üçün ayrılan torpaq sahələrinə ƏDV-yə oxşar vergi sistemi tətbiq etməyin mümkünlüyü məsələsinə baxmağı təklif etmişdir.

krossvord



**Yuxarıdan aşağı:** 1.Qədim yunan və Roma tikililərində geniş yayılmış naxış; 2.ABŞ və Kanadada məşhur şəlalə; 3.İnsanların bitki və heyvanları yetişdirib yararlandıqları müəssisə; 4.Rəssamlıqda cərəyan; 5.Şərqi Avropada dövlət; 6.Fransa fiziki və riyaziyyatçısı. Cərəyan şiddətinin vahidi onun soyadını daşıyır; 7.Yapon əlbəyaxa döyüş sənəti; 13.Çilinin Pasxa adasında hündürlüyü 20 metrə çatan daş heykəllər kompleksi;
15.Mətbəx mebelinin bir hissəsi. Qab-qacaq saxlamaq üçün xüsusi dolab; 16.Eyni kimyəvi element atomlarının radioaktivliyə və atom çəkisinə görə bir-birindən fərqlənən formaları; 17.ABŞ-da kabus şəhər; 18.Stolüstü strateji oyun növü; 20.Kimyəvi element (qaz); 21.Azərbaycan şahmatçısı, beynəlxalq qrossmeysterin adı. Şahmat üzrə üçqat Azərbaycan çempionu.

**Soldan sağa:** 1.Əl işindən maşın istehsalına keçid arasında baş vermiş istehsal üsulu; 8.Oksigensiz yaşaya bilən mikroorqanizmlər; 9.Hindistanda şəhər; 10.Uels şahzadəsi; 11.Hörmət əlaməti olaraq birini görməyə, biri ilə görüşməyə gəlmək, vizit; 12.Hind fəlsəfə və dinində anlam (termin); 14.Fransa kinoaktrisası. «Dünya kifayət deyil» filmində (1999) baş qəhrəmanlardan biri; 19.Azərbaycanın görkəmli ziyalısı, ilk universitet təhsilli alim və müəllim, Azərbaycan milli mətbuatının yaradıcısı; 21.Rusiyada çay; 22.Yaponiyada şəhər; 23.Oxu şaquli və ya üfüqi istiqamətdə hərəkət edib, yolu açıb-bağlayan xüsusi qurğu. Adətən obyektlərin girişində quraşdırılır; 24.Yunan mifologiyasında meşə tanrısı. Hermesin oğlu; 25.Nüfuz, hörmət, ad-san.



*«Dünya kifayət deyil» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Slaman *(Teodor)*; 2.Avtoqol; 3.İrbis; 4.İnsula; 5.Ramazan; 6.Neman; 7.Kayman; 13.Avro; 15.Rosberq *(Niko)*; 16.Smirna; 17.Stupor; 18.Santim; 20.Yaşma; 21.Maori. **Soldan sağa:** 1.Stabilitron; 8.Avtobus; 9.Mamay (xan); 10.Arqos; 11.Lozanna; 12.Eldar *(Quliyev)*; 14.İndri; 19.Mayorat; 21.Maska; 22.Ruşa; 23.Opponent; 24.Ada; 25.Birminqem.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 10000

idman

# Qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tədrisin təkmilləşdirilməsi, tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün idman federasiyaları ilə əməkdaşlığa xüsusi önəm verir və münasibətlərin daha da inkişaf etdirilməsinə çalışır. Ölkədə peşəkar idmanın real vəziyyəti, ehtiyacların müəyyən olunması və tələblərə cavab verən idman təhsilinin təşkili, ixtisaslı kadrların yetişdirilməsinin məhz belə əməkdaşlıq nəticəsində mümkün ola biləcəyini nəzərə alaraq, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası və Azərbaycan Velosiped İdmanı Federasiyası ilə mövcud əlaqələrin möhkəmləndirilməsinə xidmət edən Əməkdaşlıq Memorandumu imzalamışlar.




Memoranduma uyğun olaraq, tərəflər Akademiyada velosiped idman növünün təşviq edilməsi və tələbələrin bu idmana marağının artırılması üçün birgə tədbirlərin təşkili, həmçinin tələbələrin Federasiya tərəfindən texniki təlimlərə və ixtisasartırma kurslarına cəlb olunması sahəsində əməkdaşlıq edəcəklər. Gələcəkdə bu idman növü üzrə müəyyən ödənişli əsaslarla mütəxəssislərin yetişdirilməsi, onların yerli və beynəlxalq yarışlarda iştirakına qarşılıqlı dəstək verilməsi istiqamətində də razılıq əldə olunmuşdur. Bundan əlavə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası ilə Azərbaycan Velosiped İdmanı Federasiyası birgə yüksək ixtisaslı peşəkar kadr hazırlığını həyata keçirmək, Federasiyanın ehtiyaclarını müəyyən edərək müvafiq təlimləri təşkil etmək, birgə elmi-tədqiqat işlərini aparmaq barədə razılığa gəlmişlər.

Bir sıra istiqamətlər üzrə sıx əməkdaşlığı nəzərdə tutan memorandumu Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev və Azərbaycan Velosiped İdmanı Federasiyasının vitze-prezidenti Sahib Ələkbərov imzalamışlar.

# Velosipedçimiz Rumıniyada mərhələ qalibi oldu

Rumıniyada Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 2.1 kateqoriyalı «Sibiu» Velosiped Turu yarışının dağa fərdi ötüşmə üzrə 6,8 kilometrlik 3-cü mərhələsində «Synergy Baku» komandasının üzvü Kiril Pozdnyakov birinci olub.

Məsafəni 16 dəqiqə 21 saniyəyə qət edən velosipedçimiz ən yaxın izləyicisi İtaliyanın «Androni Giocattoli» pro-kontinental komandasının üzvü Alesio Talianini 6 saniyə qabaqlamaqla mərhələnin qalibi olub. Bu uğurlu çıxışı sayəsində «Synergy Baku»nun üzvü ən yaxşı dağ velosipedçilərinin mübarizəsində 3-cü yerə yüksəlib.

Qeyd edək ki, on doqquz komandanın iştirak etdiyi «Sibiu» turunda komandamız 5 velosipedçi - Elçin Əsədov, Matiya Kvasina, Kiril Pozdnyakov, Matey Müqerli və Yosip Rumaçla təmsil olunur.

# Portuqaliya millisinin tarixi zəfəri

Ronaldonun Ronaldosuz komandası Avro›



*İyunun 10-da start götürən futbol üzrə XV Avropa çempionatına düz bir ay sonra final görüşü ilə yekun vuruldu. Parisin Sen-Deni rayonunun "Stade de Frans" stadionunda keçirilən Portuqaliya-Fransa matçından sonra fransızlar meydanı başıaşağı tərk etdilər. Portuqaliya millisi isə tarixində ilk dəfə olaraq Avropa kubokunu başı üzərinə qaldırdı.*

İingiltərəli Mark Klattenburqun idarə etdiyi final qarşılaşmasında ilk hissəsi fransızların ərazi üstünlüyü ilə keçsə də, bu, hesabda əksini tapmayıb.

Hissənin ən yaddaqalan hadisə isə Portuqaliya yığmasının kapitanı, dünyaca məşhur ulduz futbolçu Kristiano Ronaldonun zədələnərək meydanı tərk etməsi olub. Oyunun 25-ci dəqiqəsində onu Rikardo Quareşma əvəzləyib.

İlk hissədə olduğu kimi, ikinci hissədə də Fransa millisi daha çox hücum edən tərəf olub. Lakin Portuqaliya millisinin qapıçısı Rui Patrisionun inamlı oyunu nəticəsində fransızlar qol vura bilməyiblər. Matçın sonlarına yaxın isə fransızların heyətində Andre-Pyer Jinyakın vurduğu zərbə qapı dirəyinə dəyib.

Oyunda qalibi müəyyən etmək üçün əlavə vaxt oynanılıb. İlk 15 dəqiqədə qapılara qol vurulmayıb. İkinci on beş dəqiqəyə hücumlarla başlayan Portuqaliya millisi 109-cu dəqiqədə Ederin uzaq məsafədən vurduğu qarşısıalınmaz zərbə ilə istəyinə çatıb. Buraxılan qoldan sonra Fransa millisi çox cəhd göstərsə də, bu, heç nəyi dəyişməyib. Beləliklə, Portuqaliya yığması tarixində ilk dəfə olaraq Avropa çempionu tituluna layiq görülüb.

mozaika

## Səfəvilər dövrünün abidəsi

tarix

İran İslam Respublikası zəngin tarixi keçmişi ilə xarici turistləri cəlb edən ölkələrdən biridir. Buradakı tarixi abidələr avropalı turistlər üçün olduqca maraqlıdır. Belə tarixi abidələrdən biri də İsfahan şəhərinin mərkəzindən axan Zayəndə çayı üzərindəki tarixi Si o se pol körpüsüdür («pol» sözü fars dilindən tərcümədə körpü deməkdir. Si o se pol isə 33 arkası olan körpü kimi tərcümə edilir).



Bu körpü Səfəvi dövlətinin şahənşahı II Şah Abbas tərəfindən tikdirilib. Onun tikintisinə 1599-cu ildə başlanılıb və 1602-ci ildə başa çatdırılıb. Uzunluğu 300 metr, eni 14 metr olan körpünün tikintisini II Şah Abbas Gürcüstan əsilli vəziri Allahverdi xana tapşırmışdır. Vəzir İranda, Azərbaycanda və Gürcüstanda fəaliyyət göstərən tanınmış memarları dəvət edərək körpünü xüsusi zövqlə tikdirib. 33 arkadan ibarət olan körpü yalnız çayı keçmək üçün deyil, həm də istirahət üçün nəzərdə tutulub. Körpünün üstündə bir neçə otaq inşa edilib ki, bunların birindən çayın suyunun artıb-azalmasını müşahidə etmək üçün istifadə edilib. Otaqlardan biri xüsusi olaraq şahənşahın, digərləri isə saray əyanlarının gəzinti zamanı istirahəti üçün tikilib. Otaqların şəhərə və çaya baxan pəncərələri var.

Hazırda körpü turistlərlə yanaşı, yerli əhalinin də gəzinti və istirahət yerinə çevrilib. Gecələr körpünün işıqlandırılması olduqca maraqlıdır və bura İsfahan gənclərinin sevdiyi məkanlardandır.

## Qanun şöhrətə boyun əymədi

tam ciddi



Dünyanın məşhur futbol klublarının önündə gələn «Barselona»nın hücumçusu, müasir futbolun parlaq ulduzu Lionel Messi və onun atası Xorxe Orassio Messi vergi ödəməkdən yayındıqlarına görə İspaniya məhkəməsi tərəfindən 21 ay müddətinə həbs cəzasına məhkum olunmuşlar (üç cinayət əməlinin hər biri üzrə yeddi ay olmaqla).

Leonel Messi dünyanın ən bahalı oyunçularından biridir, buna baxmayaraq, o, vergi qanunvericiliyinə məhəl qoymadığına görə öz idmançı nüfuzuna ağır zərbə vurmuşdur. 2007, 2008 və 2009-cu illərdə qanunun tələblərini pozmuş, ümumilikdə 4,1 milyon avro məbləğində vəsaiti ödəməkdən yayınmışdır. Ümumi cəza müddəti iki ildən az olduğu üçün L.Messi həbsxanada yatmayacaq, onun həbsxana müddətini 4,1 milyon avro pul cəriməsi ilə əvəz etmək hüququ var.

Bu, L.Messinin ilk məhkəmə macərası deyildir. İlk məhkəmə işi 2013-cü ildə qaldırılmışdı - o vaxt Messi ailəsi 2007-2009-cu illərdə əldə etdikləri 10,1 milyon avro gəlir üzrə vergi kimi ödəməli olduqları 4,1 milyon avronu gizlətməkdə ittiham edilirdilər. İstintaq nəticəsində məlum olmuşdur ki, Messinin atası futbolçunun reklam fəaliyyəti ilə bağlı gəlirlərini vergidən yayındırmaq üçün Beliz adasında və Uruqvayda şirkət açmışdır. O vaxt L.Messi həddi-büluğa çatmamışdı və məhkəmədə sübut etmişdi ki, maliyyə məsələləri onu maraqlandırmır, bu işlə atası məşğul olur. Həmin işi bağlamaq üçün L. Messi vergi orqanlarına 5 milyon avro cərimə, üstəlik də 2010 və 2011-ci illər üçün 10 milyon avro vergi ödəmişdi.

Azərbaycanın «Qırmızı kitab»ı

## Adi turac

Başının üstü qızılıboz, alnı qaramtıl, təpə və peysər lələklərinin kənarları pas rəngli qonur, boğazlığı isə şabalıdı rəngdədir. Qulaqlarını ağ lələklər örtür. Döş və qarın hissəsi qara, qarnının aşağı hissəsi tünd sarıdır. Qanad lələkləri tünd qonur, çiyin lələkləri bozdur. Belində lələklərin uc tərəfi qaradır, dibində köndələn ağ zolaqlar var. Ayaqları sarı-qırmızımtıl rəngdədir. Dişi quşun üst tərəfi erkəyə nisbətən solğundur, başı açıq qonur, boynunda şabalıdı rəngli zolaq vardır. Hər ikisinin dimdiyi solğun sarı rəngdədir.



Əsasən Yaxın Şərq və Asiyada yayılıb. Azərbaycanda Kür-Araz ovalığında və Lənkəran düzənliyində məskunlaşıb. Kür, Alazan, Qabırrı çayları boyu kol cəngəlliklərində, Ağstafa rayonu ərazisinin Saloğlu dəmir yolu stansiyasına qədər yayılıb.

Kol və ot cəngəllikləri, moruq, qamış cəngəlliklərinin açıq sahələri ilə növbələşən yarımquru əsas yaşayış yerləridir. Bağ və üzümlüklərdə, dənli bitkilər əkilmiş sahələrin kənarlarında da rast gəlinir. Oturaq quşdur. Yaşıl cücərtilər, giləmeyvə, bitki toxumları və cücülərlə qidalanır. Cüt yaşayan quşdur. Çox sürətlə qaçır və gizlənir, güclü qorxu hiss etdikdə qanadlarını yanlarına vurmaqla şaquli istiqamətdə uçur. Turac monoqamdır, cücələrin qayğısına hər iki fərdi qalır. Yuvası torpaq üzərində çuxur şəklində sıx hündür otlar arasında və ya kolların altında yerləşir. Yuvada qonur-zeytuni rəngdə 5-9 ədəd yumurta olur. Dişi fərd 20-21 gün kürt yatır. Bir yaşında cinsi yetişkənliyə çatır.

Azərbaycanda 1958-1966-cı illərdə hər 100 kvadratkilometr sahəyə 800-3200 quş düşüb. Hazırda ölkə ərazisində 5000-7000 turac yaşayır. Çox yüksək reproduktivlik xüsusiyyətlərinə baxmayaraq, qış mövsümündə qarlı-şaxtalı günlərdə bu quşlar kütləvi məhv olur. Mühafizə olunan ərazilərdə çoxalma dövründə qaban sürüləri, çaqqal, porsuq, boz qarğa turac yuvalarını dağıdır. Ölçüsündən asılı olmayaraq, bütün ornitofaq quşların hücumlarına məruz qalır. Mal-qaranın otarılması, otçalma və qanunsuz ovlama da onların sayını azaldır.

Bu quşların adı Avropada sayı az olan növ statusuna və Bern konvensiyasına daxil edilib.

## Printerdə linza çap olunub

texnologiya

Almaniya mühəndisləri üçölçülü printer (3D) vasitəsilə çip və ya digər qurğu daxilində insanın saçı qalınlığında miniatür linzalar çap etməyə başlayıblar. Bu, qum dənəsi ölçüsündə həqiqi «casus» kameralarının yaradılmasına yol açır.

Almaniyanın Ştutqart Universitetinin mütəxəssisi Timo Qissibl və onun həmkarları «3D» lazer printer vasitəsilə sərbəst forma və ölçüdə linzalar çap etməyə yiyələnməklə onların miniatür şəklə salınmasına mane olan bütün problemlərin həllini tapmağa nail olublar. T.Qissibl qeyd edib ki, belə linzalar və onun hazırlanma sistemi bir çox sahələrdə tətbiq oluna bilər. Məsələn, onların əsasında miniatür kameraları inyeksiya iynəsindən keçərək insan orqanizminə adi şpris vasitəsilə daxil etmək mümkün olacaq, eləcə də daha müasir izləmə sistemlərinin və digər mürəkkəb optik qurğuların tətbiqinə imkan verəcək.

**Müdriklər deyib ki...**



***«Nəyisə öyrənməyi ürəkdən arzulamaq uğurun yarısıdır».***
***Deyl Karneqi(1888-1955)***